HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 15 (655) ▪ 24 aprel 2013

www.vergiler.az

Qiyməti: 40 qəp.

# Prezident İlham Əliyev: «Bakı dünyanın ən gözəl şəhərlərindən birinə çevrilir»



Aprelin 22-də Binəqədi rayonunun Biləcəri qəsəbəsindəki mədəniyyət-istirahət parkı əsaslı bərpa və yenidənqurmadan sonra istifadəyə verilmişdir. Parkın açılışında iştirak edən Prezident İlham Əliyevə məlumat verilmişdir ki, sakinlərin və şəhərimizə gələn qonaqların rahatlığı üçün dünya standartlarına uyğun istirahət guşələrinin yaradılması istiqamətində son illər paytaxtda ardıcıl tədbirlərin davamı olaraq yenidən qurulan bu park ən yüksək standartlara cavab verir. Bu istirahət guşəsinin yeni formada istifadəyə verilməsi yeni-yeni parklar və yaşıllıq zolaqlarının salınması, əhaliyə xidmət göstərən müasir iaşə obyektləri, bağlarda və xiyabanlarda ən müasir tələblərə cavab verən infrastrukturun yaradılması və Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlərin davamlılığından xəbər verir.

Dövlət başçısı parkdakı Mədəniyyət Mərkəzində yaradılmış şəraitlə tanış olmuşdur. Qeyd edilmişdir ki, Mədəniyyət Mərkəzinin binası yenidən tikilmişdir. Mərkəz sakinlərin rahat istirahəti üçün lazımi avadanlıqla təchiz edilmişdir. Ərazisi 4 hektar olan bu istirahət məkanında geniş abadlıq-quruculuq işləri yüksək zövqlə həyata keçirilmişdir. Burada 20 min kvadratmetrlik ərazidə yerli şəraitə uyğun müxtəlif ağac və gül kolları əkilmişdir. Yaşıllaşdırılan ərazidə avtomatik suvarma sistemi quraşdırılmışdır. İstirahət məkanında ən müasir işıqlandırma sistemi və fəvvarə quraşdırılmış, idmanın müxtəlif növləri ilə məşğul olmaq üçün süni örtüklü meydança yaradılmışdır.

Prezident İlham Əliyev parkla tanışlıqdan sonra qəsəbə ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür. Dövlət başçısı qeyd etmişdir ki, bu park Bakının ən gözəl parklarından biridir: «Bu, onu göstərir ki, Bakı sürətlə inkişaf edir. Bakının bütün yerləri, bütün qəsəbələri də inkişaf edir. Təkcə mərkəzdə deyil, eyni zamanda, bütün qəsəbələrdə quruculuq, abadlıq işləri aparılır. Bakı indi parklar şəhəridir. Bakıda olan parklar, deyə bilərəm ki, ən yüksək səviyyədədir. Gözəlliyi ilə seçilən parklar, ictimai yerlər, bağlar salınıbdır, bərpa edilibdir. Bizim əlbəttə ki, ən böyük parkımız bulvardır. Bulvar da, deyə bilərəm ki, dünyanın ən böyük parklarından biridir. Bulvarın genişləndirilməsi prosesi davam edir. Bundan başqa, əlbəttə ki, biz ilk növbədə şəhərin mərkəzində parkların yenidən qurulmasını həll etdik. İndi isə bütün başqa yerlərdə də belə gözəl parklar salınır. İstər mərkəz olsun, istər qəsəbə olsun, Azərbaycanın hər bir yerində bax belə gözəl şərait olmalıdır».

Prezident İlham Əliyev Biləcəri qəsəbəsində gedən quruculuq işlərini yüksək qiymətləndirmiş, Bakının hər bir qəsəbəsində, o cümlədən Biləcəridə Bakının inkişafı ilə bağlı qəbul olunmuş proqramlar çərçivəsində infrastruktur layihələrinin icra edildiyini, bütün qəsəbədə lazımi şəraitin yaradıldığını diqqətə çatdırmışdır. «Bakı təkcə mərkəzdən ibarət deyildir. Bakıda vətəndaşlar hər bir rayonda, hər bir qəsəbədə yaşayırlar. Onların şəraiti yaxşı olmalıdır. Onlar üçün gözəl imkanlar yaradılmalıdır. Ona görə Bakının kənarında yerləşən qəsəbələrdə xüsusi proqramlar icra edilir. Yəni bu yerlərə xüsusi diqqət göstərilməlidir. Xüsusilə Binəqədi kimi böyük rayonun inkişafı üçün xüsusi tədbirlər planı icra edilir. Bu rayonun planlı şəkildə inkişafı əlbəttə ki, bütün problemlərin həlli üçün imkan yaradacaqdır. Siz qeyd etdiniz, yeraltı infrastruktur işlərinin - kommunikasiyalar, xətlər, qazlaşdırma, elektrik enerjisi, su, kanalizasiya və s. - bütün bu işləri biz paralel şəkildə görürük. Əlbəttə ki, vətəndaşların rahat yaşaması, istirahəti, sağlamlığının bərpası üçün belə gözəl parklar lazımdır».

Dövlət başçısı Bakı kəndlərinin və qəsəbələrinin inkişafı ilə bağlı tədbirlərin davam etdiriləcəyini, qəsəbələrin hər bir infrastrukturla təmin olunacağını, insanların rahatlığı üçün ən müasir xidmətlərin yaradılacağını bildirmişdir. Qeyd olunmuşdur ki, qəsəbələrə olan diqqət və qayğı yüksək səviyyədə olmalı, ortaya çıxan problemlər dərhal həll olunmalıdır: «Əgər bütün qəsəbələrdə, bütün kəndlərdə bütün problemlər həll olunarsa, demək, ölkədə mövcud olan problemlər öz həllini tapar. Əlbəttə, biz problemləri bilirik, onların həlli ilə məşğuluq. Problemlərin həlli üçün bizdə bütün imkanlar - siyasi iradə, maliyyə imkanlarımız, artıq gözəl, peşəkar kadrlarımız, dəyərli vətəndaşlarımız vardır. Yəni əsas məsələ ondan ibarətdir ki, biz problemləri aşkarlayaq və həll edək».

Biləcəridə aparılan quruculuq işlərindən razı qaldıqlarını bildirən qəsəbə sakinləri göstərdiyi diqqət və qayğıya görə Azərbaycan Prezidentinə minnətdarlıqlarını çatdırmışlar. Bildirmişlər ki, Biləcəridə son illər yüksək səviyyədə həyata keçirilən abadlıq, quruculuq işləri insanların rahatlığı və sosial vəziyyətlərinin yaxşılaşması üçün böyük töhfədir.

rəsmi xronika

## Azərbaycan-Makedoniya əməkdaşlığı yeni mərhələdə

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Makedoniyanın Baş naziri Nikola Qruevskinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

Dövlətimizin başçısı Nikola Qruevskinin Azərbaycana səfərinin uğurlu olacağına və ikitərəfli münasibətlərimizin inkişafına dair məsələlərin müzakirəsi üçün yaxşı fürsət yaradacağına ümidvar olduğunu bildirmişdir.

Ölkələrimiz arasında siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu vurğulayan Makedoniyanın Baş naziri Nikola Qruevski siyasi əlaqələrlə yanaşı, ölkəsinin Azərbaycan ilə iqtisadi və digər sahələrdə də əlaqələri genişləndirməkdə maraqlı olduğunu qeyd etmişdir.

Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığa dair imzalanacaq sənədin önəmi vurğulanmış, əlaqələrimizin enerji, turizm, sərmayə qoyuluşu və digər sahələrdə genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

## Martin Blessinq: «Azərbaycanda sürətli iqtisadi inkişafın şahidi oldum»

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 23-də «Commerzbank AG» bankının idarə heyətinin sədri Martin Blessinqin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

Azərbaycana ilk dəfə 5 il bundan əvvəl səfər etdiyini xatırlayan Martin Blessinq ötən dövr ərzində ölkəmizdə gedən sürətli iqtisadi inkişaf proseslərinin şahidi olduğunu qeyd etmişdir. O, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində Azərbaycanda həyata keçirilən məqsədyönlü tədbirlərin önəmini vurğulamışdır.

Dövlətimizin başçısı «Commerzbank AG» bankının idarə heyətinin sədri Martin Blessinqin ölkəmizə səfərinin əməkdaşlığın inkişafı ilə bağlı görülən işlərin və bu əməkdaşlığın perspektivlərinin nəzərdən keçirilməsi üçün yaxşı fürsət yaratdığını demişdir. Azərbaycanda son illər sürətli iqtisadi inkişafa nail olunduğunu deyən Prezident İlham Əliyev ölkəmizdə iqtisadi, sosial, infrastruktur layihələrinin uğurla həyata keçirildiyini vurğulamışdır.

Görüşdə «Commerzbank AG» bankı ilə ölkəmiz arasında qeyri-neft sektorunda, xüsusilə kənd təsərrüfatı sahəsində əməkdaşlığın genişləndirilməsi, kənd təsərrüfatının müasir texnika ilə təmin olunması və məhsuldarlığın artırılması üzrə məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

# Bakıda daha bir idman kompleksinin təməli qoyulmuşdur

## Dövlətimizin başçısı mərasimdə iştirak etmişdir

*Aprelin 19-da Bakıda Su İdmanı Sarayının təməlqoyma mərasimi olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

2012-ci il avqustun 30-da Prezident İlham Əliyev Azərbaycanda su idmanı növlərinin inkişaf etdirilməsi, yerli və beynəlxalq səviyyəli yarışların təşkili məqsədi ilə Bakıda müasir standartlara cavab verən Su İdmanı Sarayının tikilməsinə dair sərəncam imzalamışdır. Su İdmanı Sarayının layihələndirilməsi və tikintisi üçün 2012-ci ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Gənclər və İdman Nazirliyinə ilkin olaraq 5 milyon manat ayrılmışdır. Koreya Respublikasının «Securo CO.LTD» şirkəti sarayın layihələndirmə işlərini qısa müddətdə başa çatdırmışdır.



Prezident İlham Əliyev tikintidə iştirak edəcək yerli və xarici mütəxəssislərlə görüşmüşdür.

Su İdmanı Sarayının layihəsi ilə tanış olan dövlətimizin başçısına məlumat verilmişdir ki, sarayın inşası üçün 6 hektar torpaq sahəsi ayrılmışdır. Ümumi sahəsi 46 min kvadratmetr olan saray ən müasir standartlar səviyyəsində tikiləcək və Beynəlxalq Üzgüçülük Federasiyasının tələblərinə tam cavab verəcəkdir.

İspaniyanın «Pujol Arquitectura» şirkətinin rəhbəri Yoakim Puyol bildirmişdir ki, sarayda üç üzgüçülük hovuzu tikiləcəkdir. Uzunluğu 50, eni 25, dərinliyi 3 metr olacaq hovuz yarışlar üçün nəzərdə tutulmuşdur. İkinci hovuzda isə məşqlər keçiriləcəkdir. Hündürlükdən suyatullanma hovuzunun uzunluğu 25, eni 20, dərinliyi isə 6 metrdir. Bundan başqa, sarayda fitnes zalları, restoran, konfrans zalı, ofislər, soyunub-geyinmə otaqları və digər işçi və köməkçi otaqlar fəaliyyət göstərəcəkdir. Su İdmanı Sarayının ərazisində köməkçi bina və qurğular, 500 avtomobil yerlik yerüstü dayanacaq olacaqdır. Sarayda keçiriləcək idman yarışlarını 6 min tamaşaçı izləyə biləcəkdir. Burada idmançıların məşq etmələri, respublika və beynəlxalq səviyyəli yarışların təşkili məqsədi ilə hər cür şərait yaradılacaqdır. Su İdmanı Sarayı, həmçinin, paytaxt Bakının ümumi görünüşünə əlavə yaraşıq verəcəkdir.

Metal gilizi bünövrəyə buraxaraq, beton qarışığı tökən qurğunun düyməsini basan Prezident İlham Əliyev Su İdmanı Sarayının inşasının yüksək səviyyədə aparılması üçün tapşırıq və tövsiyələrini vermişdir.

2 Dövlət büdcəsinə vergi daxilolmaları artır

3 Vergi borclarının ödənilməsi mexanizmi təkmilləşdirilir

4 «İnsan resurslarının inkişafı sahəsində Vergilər Nazirliyinin mühüm nəticələri var»

5 2013-cü ildə Azərbaycanın qeyri-neft sektorunda dinamik artım gözlənilir

# Yeni qaydalar vergi ödəyicilərinin mənafeyinə xidmət edir

## Vergilər Nazirliyinin Kollegiyası «Fiziki şəxslərin vergi uçotuna alınması, yenidən uçota alınması və uçotdan çıxarılması Qaydaları»nı təsdiq etmişdir

*Vergi orqanlarında fiziki şəxslərin vergi uçotuna alınması, yenidən uçota alınması və uçotdan çıxarılması Vergi Məcəlləsinin 33-cü və 34-cü maddələrinə uyğun olaraq aparılır. Vergi orqanlarında fiziki şəxslərin uçota alınması ilə bağlı tələblər, uçotun aparılması yeri və müddətləri, habelə uçota alınmaq üçün verilən ərizəyə əlavə edilən sənədlər Vergi Məcəlləsinin həmin maddələri ilə müəyyənləşdirilir.*

**Fiziki şəxsin vergi uçotuna alınması**

Qaydalarda qeyd edilir ki, vergi orqanında uçota alınmaq üçün fiziki şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən vergi orqanına Vergi Məcəlləsinin 34.1-ci maddəsinin 7-ci bəndinə əsasən, forması Vergilər Nazirliyi tərəfindən təsdiq edilmiş «Fiziki şəxsin vergi uçotu haqqında ərizə» verilir. Ərizə fiziki şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən doldurulur. Ərizədə göstərilənlərin düzgünlüyünə fiziki şəxs və ya onun səlahiyyətli nümayəndəsi cavabdehdir.

Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxs ərizəni sahibkarlıq fəaliyyətinə başladığı günədək vergi orqanına verməlidir. Ödəmə mənbəyində vergiyə cəlb olunması nəzərdə tutulmayan gəlirləri olan və ya royaltidən gəliri olan fiziki şəxslər, yaxud Azərbaycan Respublikasının hüdudlarından kənarda gəlir əldə edən rezident fiziki şəxslər ərizəni gəlir əldə etmək hüququ yarandığı gündən gec olmayaraq vergi orqanına verməlidir.

Fiziki şəxsi vergi orqanlarında vergi uçotuna alınma, yenidən uçota alınma və uçotdan çıxarılma məsələlərində notarial qaydada təsdiq edilmiş etibarnamə əsasında səlahiyyət verilmiş şəxs təmsil edə bilər.

Vergi orqanı vergi ödəyicisinin uçota alınmasını «Fiziki şəxsin vergi uçotu haqqında ərizə» və Vergi Məcəlləsi ilə tələb edilən digər sənədlər vergi orqanına daxil olduğu gündən sonrakı 2 gün müddətində həyata keçirməli və həmin müddətdə də vergi ödəyicisinə müvafiq şəhadətnamə verməlidir.

Qaydalarda vergi orqanında fiziki şəxslərin elektron qaydada vergi uçotuna alınması da qeyd edilib. Belə ki, fiziki şəxslər www.e-taxes.gov.az İnternet Vergi İdarəsi portalında e-qeydiyyatdan keçməklə vergi uçotuna alına bilərlər. Bunun üçün fiziki şəxsin gücləndirilmiş elektron imzası və ya istifadəçi kimi portalda qeydiyyatdan keçməklə alınmış istifadəçi kodu, şifrəsi, parolu olmalıdır.

Fiziki şəxsin e-qeydiyyatı www.e-taxes.gov.az İnternet Vergi İdarəsi portalının «Fərdi sahibkarların onlayn qeydiyyatı» bölməsi vasitəsilə aparılır. Bu məqsədlə fiziki şəxs qeyd edilən bölməyə istifadəçi kodunu, şifrəni, parolu daxil edir və elektron ərizə formasını dolduraraq qeydiyyatdan keçir.

E-qeydiyyat zamanı fiziki şəxsin ünvanı şəxsiyyət vəsiqəsində göstərilmiş qeydiyyat məlumatlarına əsasən, sistem tərəfindən avtomatik müəyyənləşdirilir və vergi uçotuna alınır.

**Fiziki şəxsin vergi uçotundan çıxarılması...**

Vergi ödəyicisi olan fiziki şəxsin uçotdan çıxarılması prosedurları fiziki şəxsin fəaliyyətinə xitam verildikdə, fiziki şəxs məhkəmə tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada ölmüş, itkin düşmüş və ya fəaliyyət qabiliyyətini itirmiş sayıldıqda, fiziki şəxs vəfat etdikdə mümkün olur.

Fiziki şəxsin uçotunun ləğvi ilə bağlı proseslərə vergi orqanına daxil olmuş fiziki şəxsin fəaliyyətinə xitam verildikdə - onun və ya səlahiyyətli nümayəndəsinin Vergilər Nazirliyi tərəfindən təsdiq edilmiş «Fiziki şəxsin vergi uçotundan çıxarılması haqqında ərizə» formasında müraciəti əsasında, fiziki şəxs ölmüş, itkin düşmüş və ya fəaliyyət qabiliyyətini itirmiş sayıldıqda - məhkəmənin müvafiq qərarı əsasında, fiziki şəxs vəfat etdikdə - ölüm haqqında şəhadətnamə əsasında baxılır.

Fiziki şəxs vergi uçotundan çıxarılanadək vergi ödəyicisinin uçota alınması barədə vergi şəhadətnaməsinin əsli vergi orqanına təhvil verilir. Vergi uçotundan çıxarılan vergi ödəyicisinin vergi şəhadətnaməsi itmişdirsə, bu barədə vergi ödəyicisi və ya onun səlahiyyətli nümayəndəsi vergi orqanına yazılı məlumat verir. Vergi uçotundan çıxarılma barədə müraciətlər edilən zaman vergi orqanı əməkdaşı müraciətin edilməsi tarixinə vergi ödəyicilərinin uçot məlumat bazasında vergi uçotundan çıxarılan şəxs barədə uçotdan çıxarılan vergi ödəyicisinin əlavə dəyər vergisinin məqsədləri üçün qeydiyyatda olub-olmaması, vergi ödəyicisinin təsərrüfat subyektinin vergi uçotunda olub-olmamağı, vergi ödəyicisinin təsərrüfat subyektində nəzarət-kassa aparatının qeydiyyatda olub-olmamağı, vergi ödəyicisinin təsərrüfat subyektində POS-terminalının qeydiyyatda olub-olmamağı, vergi ödəyicisinin aktiv bank hesablarının olub-olmamağı, vergi ödəyicisinin dövlət büdcəsinə vergi borcunun olub-olmamağı, təqdim edilməmiş bəyannamələrin olub-olmamağını yoxlayır.

**Fiziki şəxsin yenidən vergi uçotuna alınması...**

Sahibkarlıq fəaliyyətinə xitam verildikdən sonra yenidən sahibkarlıq fəaliyyətinə başlamaq istəyən fiziki şəxsin özü və ya onun səlahiyyətli nümayəndəsi vergi orqanına «Fiziki şəxsin vergi uçotu haqqında ərizə» ilə müraciət etməlidir. Vergi orqanına bu barədə ərizə daxil olduqda 2 iş günü ərzində ləğv edilmiş kimi arxivləşdirilmiş VÖEN vergi ödəyicilərinin uçot məlumat bazasında bərpa olunur. Bu zaman fiziki şəxsə onun vergi orqanında uçota alınmasını təsdiq edən vergi şəhadətnaməsi təqdim edilir.

**AYTƏN**

# Gömrük tarifləri ilə bağlı yeni qanun qəbul olunacaq

*Milli Məclisin iqtisadi siyasət komitəsində dövlət başçısının təşəbbüsü ilə parlamentə təqdim olunan «Gömrük tarifi haqqında» yeni qanun layihəsinin müzakirələri başlayıb. Ötən həftə komitənin iclasında qanun layihəsini təqdim edən millət vəkili Ziyad Səmədzadə bildirib ki, ölkənin iqtisadi, milli təhlükəsizliyi baxımından böyük əhəmiyyət kəsb edən bu sənəd yaxın vaxtlarda Milli Məclisin plenar iclasında qəbul ediləcək.*

Qanun layihəsi barədə məlumat verən Dövlət Gömrük Komitəsinin baş idarə rəisi Mirqasım Vahabov isə qeyd edib ki, yeni qanun idxalın əmtəə üsulunu təkmilləşdirəcək və gömrük tarifinin formalaşdırılmasını, tətbiqini, həmçinin gömrük sərhədindən keçirilən mallardan gömrük rüsumlarının tutulması qaydalarını müəyyən edəcək. 5 fəsil, 23 maddədən ibarət bu qanunun əsas məqsədi idxalın əmtəə strukturunu tənzimləmək, valyuta gəlirlərinin və xərclərinin əlverişli nisbətini təmin etmək, ölkə iqtisadiyyatını xarici rəqabətin mənfi təsirindən qorumaq, dünya iqtisadiyyatına inteqrasiyasına münbit şərait yaratmaqdan ibarətdir.

M.Vahabov əlavə etmişdir ki, ixracat və idxalatın operativ tənzimlənməsi məqsədilə müəyyən hallarda mövsümi rüsumlar tətbiq oluna bilər. Mövsümi rüsumların tətbiqi isə 6 aydan çox ola bilməz. Sənəddə malın gömrük dəyərinin bəyan edilməsi, məlumatın məxfiliyinin qorunması, gömrük orqanının hüquq və vəzifələri, malların sövdələşmə qiymətinin üsulları, gömrük rüsumlarından azadetmə və tarif güzəştləri və s. öz əksini tapıb. Layihənin müzakirələri davam edir.

# Dövlət büdcəsinə vergi daxilolmaları artır

## Vergilər Nazirliyi mədaxil proqnozunu 103,2% icra etməklə dövlət büdcəsinə 1 mlrd. 523,5 mln. manat vəsaitin ödənilməsini təmin etmişdir

Azərbaycan iqtisadiyyatının inkişafı həm vergi daxilolmalarının, həm də digər büdcə gəlirlərinin həcminin artmasına müsbət təsir göstərir. Məhz bu faktorların nəticəsidir ki, 2013-cü ilin birinci rübü ərzində dövlət büdcəsinin mədaxili əhəmiyyətli dərəcədə artaraq 131%-ə catmış, ötən ilin eyni dövrü ilə müqayisədə 33,9% çox olmuşdur. Beləliklə, cari ilin yanvar-mart aylarında dövlət büdcəsinin mədaxili 4 mlrd. 669,6 mln. manat, xərcləri isə 4 mlrd. 514,8 mln. manat təşkil etmişdir. Nəticədə dövlət büdcəsində 154,8 mln. manatlıq profisit yaranmışdır. Maliyyə Nazirliyindən verilən məlumatlara görə, bu ilin birinci rübündə dövlət büdcəsinin mədaxili 3 mlrd. 565,3 mln. manat proqnoza qarşı 31%, ötən ilin eyni dövrü ilə müqayisədə isə 33,9% çox olmuşdur. Dövlət büdcəsinin gəlirləri, əsasən, Dövlət Neft Fondu, Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi xətti ilə formalaşmışdır. Cari ilin birinci rübündə Dövlət Neft Fondundan dövlət büdcəsinə 2 mlrd. 840,4 mln. manat vəsait transfert edilmişdir. Vergilər Nazirliyi isə mədaxil proqnozunu 103,2% icra etməklə dövlət büdcəsinə 1 mlrd. 523,5 mln. manat vəsaitin ödənilməsini təmin etmişdir. Bu isə proqnoza nisbətən 47,2 mln. manat, ötən ilin eyni dövrü ilə müqayisədə 9,6% çoxdur. Dövlət Gömrük Komitəsi proqnoza 100,3% əməl edərək büdcəyə 289,5 mln. manat vəsait təmin etmişdir ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 15% çoxdur. Qeyd edək ki, birinci rübdə vergi daxilolmalarının 36,1%-i mənfəət vergisinin, 24,8%-i əlavə dəyər vergisinin, 12,7 %-i fiziki şəxslərin gəlir vergisinin, 8,3%-i aksizlərin, 18,1%-i isə digər vergilərin payına düşmüşdür.

**Büdcə xərclərinin 25,8%-i sosialyönümlü olmuşdur**

Cari ilin birinci rübündə dövlət büdcəsinin faktiki xərcləri ötən ilin eyni dövrü ilə müqayisədə 58,8% çox olmuşdur. İqtisadi təsnifata uyğun olaraq, birinci rübdə dövlət büdcəsi xərclərinin 25,8%-i və ya 1 mlrd. 164,0 mln. manatı sosialyönümlü xərclərin (əməyin ödənişi fondu, təqaüd və sosial müavinətlər, dərman və ərzaq xərcləri) maliyyələşdirilməsinə yönəldilmişdir.

Funksional təsnifata uyğun olaraq iqtisadi fəaliyyətlə bağlı xərclərə (Sahibkarlığa Kömək Milli Fondu, «Aqrolizinq» ASC, Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi, Özəlləşdirmədən qabaq müəssisələrin sağlamlaşdırılması Fondu, İpoteka Fondu) 2,1 dəfə (49,5 mln. manat), sənaye, tikinti və faydalı qazıntılar xərclərinə 1,9 dəfə (930,7 mln. manat), müdafiə xərclərinə 1,5 dəfə (100 mln. manat), kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq, ovçuluq və ətraf mühitin mühafizəsi xərclərinə 49,1% (29,1 mln. manat), mənzil və kommunal təsərrüfatı xərclərinə 18,3% (6,2 mln. manat), səhiyyə xərclərinə 13,2% (10,9 mln. manat), məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq xərclərinə 9,5% (16,2 mln. manat) çox vəsait yönəldilmişdir. 2013-cü ilin birinci rübü ərzində dövlət büdcəsindən əsaslı vəsait qoyuluşu xərclərinə 1 mlrd. 913 milyon manat, yaxud 2011-2012-ci illərin birinci rübündə üst-üstə istifadə olunmuş 1,5 mlrd. manat vəsaitdən 413 milyon manat və ya 27,5% çox vəsait yönəldilmişdir. İstifadə olunmuş vəsaitdən təhsil, səhiyyə, sosial, mədəniyyət, idman və digər sosial-mədəni və məişət təyinatlı obyektlərin tikintisinə və yenidən qurulmasına 225 mln. manat, enerji, su təchizatı, qaz, yol, su, hava və metro nəqliyyatı, kommunal, meliorasiya infrastrukturlarının tikintisinə, yenidən qurulmasına və digər sahələrə 1 mlrd. 688 mln. manat vəsait yönəldilmişdir.

*Birinci rübdə vergi daxilolmalarının 36,1%-i mənfəət vergisinin, 24,8%-i əlavə dəyər vergisinin, 12,7 %-i fiziki şəxslərin gəlir vergisinin, 8,3%-i aksizlərin, 18,1%-i isə digər vergilərin payına düşmüşdür*

**Regionlar üzrə büdcə daxilolmaları son 10 ildə 11,8 dəfə artmışdır**

Bütün maliyyə mənbələri hesabına əsas kapitala qoyulmuş investisiyalar regionlarda infrastruktur, kommunal, sosial xidmət obyektlərinin tikintisinin bir neçə dəfə artmasına və xidmət sektorunda keyfiyyətin yüksəlməsinə təkan vermişdir. Azərbaycan Respublikası Prezidentinin sədrliyi ilə Nazirlər Kabinetinin 2013-cü ilin birinci rübünün sosial-iqtisadi yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında vergilər naziri Fazil Məmmədovun qeyd etdiyi kimi, regionların inkişafı, öz növbəsində, vergi daxilolmalarına müsbət təsir göstərmişdir. Əhalinin böyük əksəriyyətinin regionlarda kənd təsərrüfatı ilə məşğul olmasına, ailə-kəndli təsərrüfatlarının və kəndli təsərrüfatının digər sahələrinin uzun illər vergidən azad edilməsinə baxmayaraq, regionlar üzrə büdcə daxilolmaları son 10 ildə 11,8 dəfə artmışdır.

**Rəşad SADIQOV**

# Bəyannamələrin 95%-i elektron qaydada təqdim edilir




Məlum olduğu kimi, vergi ödəyicilərinin vergi qanunvericiliyinə əməletməsinin mühüm elementlərindən biri vergi bəyannamələrinin və hesabatların vergi orqanlarına vaxtında təqdim edilməsidir. Məcəlləyə əsasən, hər ilin yanvar-mart ayları ayrı-ayrı tədiyyələr üzrə ən çox bəyannamə və hesabatların vergi orqanlarına təqdim edilən dövrdür. Belə ki, bu dövrdə vergi ödəyiciləri ƏDV, aksiz, mədən vergisi üzrə aylıq bəyannamələrini hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq, dövlət rüsumu üzrə hesabatı, sadələşdirilmiş vergi və muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə rüblük bəyannaməni cari ilin yanvar ayının 20-dən gec olmayaraq, ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə illik bəyannamələri yanvar ayının 31-dən gec olmayaraq, 2012-ci ilin yekununa görə hüquqi şəxslər mənfəət, əmlak və yol vergisi üzrə, fiziki şəxslər gəlir vergisi üzrə bəyannamələri mart ayının 31-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

Vergilər Nazirliyi tərəfindən davamlı şəkildə məqsədyönlü tədbirlərin və ödəyicilərlə təbliğat-maarifləndirmə işlərinin yüksək səviyyədə həyata keçirilməsi bəyannamələrin vaxtinda təqdim edilməsinə səbəb olmaqdadır. 2012-ci il üzrə illik vergi bəyannamələrinin təqdim edilməsinin vəziyyəti göstərir ki, vergi ödəyiciləri bu sahədə intizamlı hərəkət edərək bəyannamələri vaxtında təqdim edirlər. Görülmüş işlər və aparılan məqsədyönlü tədbirlər nəticəsində 2012-ci ilin yekunlarına görə muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannamələrinin 96,2%-i, mənfəət vergisi bəyannamələrinin 95,1%-i, gəlir vergisi bəyannamələrinin 97,8%-i, yol vergisi bəyannamələrinin 94,3%-i, əmlak vergisi bəyannamələrinin 90,3 %-i vaxtında təqdim edilib. Ümumilikdə, hesabat dövründə təqdim edilməli olan 312091 bəyannamədən 302203-ü və ya 96,8%-i vaxtında təqdim edilib. Bəyannamələrdən 285118-i və ya 94,3%-i elektron qaydada təqdim edilib.

Vergi bəyannamələrinin vaxtında təqdim edilməsi ilə yanaşı, Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərin də 01.01.2013-ci il tarixdən qüvvəyə mindiyini nəzərə alaraq, cari ilin əvvəlindən başlayaraq vergi ödəyicilərinə xidmət strukturları tərəfindən geniş məlumatlandırma və izahat işləri aparılıb, mütəmadi görüşlər təşkil edilib. Bu dövrdə ümumilikdə vergi orqanları üzrə vergi ödəyiciləri ilə 264 görüş və ya treninq keçirilib, 2759 vergi ödəyicisinə ünvanlı xidmət göstərilib, vergi orqanlarında 23224, xidmət mərkəzlərində 29034 vergi ödəyicisi qəbul edilərək onlara aidiyyəti xidmətlər göstərilib.

İllik bəyannamələrin vaxtında təqdim edilməsi və hesablanmış vergilərin ödənilməsi məqsədilə xüsusi bildiriş və elan formaları hazırlanaraq tətbiq edilməsi üçün yerli vergi orqanlarına göndərilib, mərkəzi və yerli televiziya kanallarında, digər kütləvi informasiya vasitələrində yayımlanıb.

Yanvar-mart aylarında Vergilər Nazirliyinin «195» Telefon-məlumat xidmətinə və rəsmi internet səhifəsinin «Sual-cavab» bölməsinə bu barədə daxil olmuş xeyli müraciət cavablandırılıb. Yeni bəyannamə formaları və onların doldurulması qaydaları, bəyannamələrin düzgün tərtib edilməsi və elektron göndərilməsi barədə videotəlimatlar hazırlanıb və nazirliyin internet səhifəsində yerləşdirilib. Bu dövr ərzində internet səhifəsinin «Sual-cavab» bölməsinə daxil olmuş 691 müraciət cavablandırılıb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 10,6% çox təşkil edib. Müraciətlərin 48-i və ya 7%-i bəyannamələr və onların doldurulma qaydaları barədə olub. Telefon xidməti tərəfindən isə 83432 müraciət, o cümlədən birbaşa əlaqə zamanı müfəttiş-operatorlar tərəfindən 49913, elektron operator tərəfindən 33519 müraciət cavablandırılıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə birbaşa əlaqə zamanı müfəttiş-operatorlar tərəfindən cavablandırılan müraciətlər 40750 və ya 22,5% artıb. Müraciətlərin 8279-u və ya 17%-i bəyannamələr və onların doldurulma qaydaları, 9008-i və ya 18,6%-i bəyannamələrin elektron formada tərtibi və göndərilməsi barədə olub. Xidmət tərəfindən vergi ödəyiciləri vergi öhdəlikləri barədə 129469 halda mesaj göndərilməklə (126650 SMS, 2819 ikitərəfli SMS) məlumatlandırılıb.

**Elbrus CƏFƏROV**

# Vergi borclarının ödənilməsi mexanizmi təkmilləşdirilir



*Hesablanmış vergi məbləğlərində vergi borclarının həcminin azalması Vergilər Nazirliyinin vergi borclarının dövlət büdcəsinə alınması sahəsində həyata keçirdiyi məqsədyönül islahatların müsbət nəticəsi kimi qiymətləndirilməlidir. Bu sahədə görülən işlərlə bağlı suallarmızı Vergilər Nazirliyinin Vergi borclarının alınması işinin təşkili idarəsinin rəisi İlkin Vəliyev cavablandırır.*

***- İlkin müəllim, son illər vergi borclarının həcmində azalma müşahidə olunur. Sizcə, bu tendensiya nə ilə bağlıdır?***

- Vergi borclarının daha effektiv idarə edilməsi üçün ilk növbədə borcun yaranma səbəblərinə nəzər salmaq lazımdır. Təcrübə göstərir ki, vergi ödəyicilərinin büdcə qarşısındakı öhdəliklərini tam və vaxtında icra etməmələrinin səbəbləri müxtəlifdir. Burada müvəqqəti maliyyə çətinlikləri və ya büdcəyə ödənilməli olan vəsaitlərin digər istiqamətlərə (dövriyyə vəsaitlərinin artırılmasına) yönəldilməsi üstünlük təşkil edir. Borcun daha səmərəli alınması məqsədilə qeyd olunan faktorlara, eləcə də hər bir borclu vergi ödəyicisinə ayrıca yanaşma tələb edilir.

Borcların və onların alınmasına cəlb edilən resursların daha səmərəli idarə edilməsi baxımından, ilkin olaraq, düzgün təhlillər aparılmaqla borcların ümumi şaxələndirilməsi zəruridir.

Bu məqsədlə aparılan təhlillər üzrə ümumi borcun tərkibi aktiv, qeyri-aktiv və mübahisələndirilən borclar üzrə risk kateqoriyalarına qruplaşdırılır. Müvafiq qruplaşdırma borcların hansı tədbirləri görməklə, yəni məcburi tədbirlərlə, yoxsa hüquq müstəvisinə çıxarılmaqla alınmasına qərar verməyə imkan verir.

Qeyd etdiyim tədbirlər bir sıra Avropa ölkələrinin vergi administrasiyaları və kollektor şirkətləri tərəfindən geniş tətbiq edilməkdədir və müvafiq istiqamətlərdən istifadə etməyimiz borcların azalmasına müsbət təsir etmişdir. 1 aprel 2013-cü ilə borc məbləği ilin əvvəli ilə müqayisədə 7,5%, ötən ilin müvafiq dövrü ilə müqayisədə 16,3%, 2011-ci ilin müvafiq dövrü ilə müqayisədə isə 30,7% azalmışdır.

***- Vergi borcları daha çox hansı səbəblərdən yaranır? Borcun yaranmaması üçün Vergilər Nazirliyi tərəfindən hansı qabaqlayıcı addımlar atılır?***

- Qeyd etdiyim kimi, borcun yaranma halları müxtəlif ola bilər, lakin vergi ödəyicisinin maliyyə çətinliyinin olması və dövlət büdcəsinə yaranmış öhdəliyin vergi ödəyicisi tərəfindən başqa istiqamətlərə yönəldilməsi vergi ödəməkdən yayınmanın əsas səbəbi kimi özünü göstərir.

Vergi borclarının alınması prosesinin effektivliyinin artırılması üçün əsas diqqət erkən müdaxiləyə yönəldilir, çünki borcun yaranma müddətindən nə qədər uzun vaxt keçirsə, onun alınması prosesi bir o qədər çətin olur. Vergi ödəyicilərini ilkin mərhələdə, yəni vergi borcu yarandığı zaman müxtəlif kanallar vasitəsi ilə məlumatlandırmaqla borcların məbləğinin artmasının qarşısını almaq mümkündür.

Qeyd edim ki, Vergilər Nazirliyində tətbiq edilən müasir informasiya texnologiyaları borclu vergi ödəyicilərinin dərhal məlumatlandırılmasına kifayət qədər böyük imkanlar yaratmışdır. Artıq borclu vergi ödəyiciləri onlara göndərilən elektron bildirişlərlə yanaşı, mütəmadi olaraq SMS və səsli mesajlar vasitəsilə borcları barədə məlumatlandırılır. Bununla yanaşı, problemli borclular vergi orqanına dəvət edilir, borcları, borcların yaranma səbəbləri və ödənilmədiyi halda görüləcək tədbirlər barədə onlara izahat verilir.

Mövcud məlumat kanallarını artırmaq niyyətindəyik. Vergilər Nazirliyinin internet saytında iki yeni bölmənin («Vergi borcunu özün idarə et» və «Öz maliyyə vəziyyətini planlaşdır») yaradılması nəzərdə tutulur. Bununla vergi ödəyicisi onlayn söhbət (online chat) vasitəsilə borclarının məbləği, yaranma səbəbləri, ödəmədiyi təqdirdə görüləcək tədbirlər və sair barədə operativ məlumat əldə etməklə yanaşı, borcun ödənilməmiş günləri üzrə faizləri avtomatik hesablamaq imkanı da əldə edəcəkdir.

***- Beynəlxalq təcrübədə vergi borclarının dövlət büdcəsinə alınması üçün istifadə olunan metodlardan hansılarının ölkəmizdə tətbiqi məqsədəuyğun olardı?***

- Borcların alınması prosesinin daim təkmilləşdirilməsi üçün səmərəli təcrübələri yaxından öyrənmək vacibdir. Təcrübələri öyrənilən bir sıra ölkələrdə, o cümlədən Avstraliya, Kanada, ABŞ və İrlandiyada vergi sistemi ümumi əməletmə modeli (compliance model) üzərində qurulub. Bu model prinsipial olaraq vergi ödəyicilərini üç əsas kateqoriyaya bölməklə onlara uyğun tədbirləri müəyyən edir. Həmin kateqoriyalara vergi öhdəliklərini vaxtında icra edən, vergi öhdəliklərini icra etmək istəyən, lakin müəyyən maliyyə çətinlikləri olan və vergi ödəməkdən yayınan vergi ödəyiciləri daxil edilir.

Birinci kateqoriyaya daxil edilən vergi ödəyicilərinə vergi öhdəliklərinə əməl etmələri üçün proseslər sadələşdirilir, elektron xidmətlər genişləndirilməklə onların inzibati xərclərinin azaldılmasına çalışılır.

İkinci kateqoriyaya daxil edilən vergi ödəyicilərinə vergi öhdəliklərini icra etməyə yardım edilir, borclarının məcburi tədbirlərlə deyil, məlumat vermək və təşviq etməklə ödənilməsinə çalışılır.

Sonuncu kateqoriyaya daxil edilən vergi ödəyicilərinə münasibətdə isə qanunvericiliyin verdiyi bütün sərt tədbirlərdən istifadə edilir.

Qeyd edim ki, borcların alınması istiqamətində müvafiq əməletmə modeli əsas prinsip kimi götürülmüşdür. Biz çalışırıq ki, borc yarandığı təqdirdə vergi ödəyicisi ilə birbaşa əlaqə yaradaq. Bunun üçün ilkin olaraq borclu vergi ödəyiciləri vergi orqanlarına dəvət edilərək onlara izahatlar verilir. Qeyd edim ki, indiyədək dəvət edilən vergi ödəyicilərindən 75%-i borclarını heç bir məcburi tədbir görülmədən ödəmişlər.

Vergi orqanlarının dəvətlərinə cavab verməyən və borclarını ödəməkdən yayınan vergi ödəyiciləri məcburi tədbir görülməli olan ödəyicilər kateqoriyasına aid edilir. Son dövrlərdə belə vergi ödəyicilərinə münasibətdə vergi borclarının alınması istiqamətində Vergi Məcəlləsinin verdiyi hüquqlarla yanaşı, digər qanunvericilik aktlarında müəyyən edilən normalardan da geniş istifadə edilməyə başlanılmışdır. Borclarını ödəməkdən imtina edən 67 vergi ödəyicisinin ölkədən getmə hüquqları müvəqqəti məhdudlaşdırılmış, 16 vergi ödəyicisinin borcları onların təsisçisi olduğu hüquqi şəxslərdəki təsisçi paylarından, 537 vergi ödəyicisinin borclarının onların şəxsi nəqliyyat vasitələri hesablarına tutulması məhkəmələr tərəfindən təmin edilmişdir. Ümumilikdə, belə tədbirlər üzrə dövlət büdcəsinə 5,9 milyon manat borc alınmışdır.

Görülən tədbirlərlə yanaşı, 2013-cü ildə apardığımız araşdırmalar nəticəsində vergi borcu olan bir sıra vergi ödəyicilərinin muzdlu müqavilələr əsasında işlədikləri müəyyən edilmişdir. Hazırda onların borclarının aldıqları əməkhaqqından tutulması üçün tədbirlər görülməkdədir.

***- Vergi borclarının dövlət büdcəsinə alınması istiqamətində digər dövlət qurumları ilə işgüzar əlaqələr hansı səviyyədə qurulub?***

- Məlum olduğu kimi, vergi borclarının daha çevik alınması üçün vergi ödəyicisinin əmlakı və gəlirləri barədə məlumatların əldə edilməsi zəruridir. Hazırda vergi orqanlarında mövcud olan elektron məlumat bazaları belə məlumatların əldə edilməsinə imkan verir. Qeyd edim ki, qurulmuş elektron mübadilə vasitəsilə borclu vergi ödəyicilərinin nəqliyyat vasitələri barədə məlumatdan istifadə olunur. Verilən sorğulara əsasən, vergi ödəyicilərinin gəlirləri barədə Dövlət Sosial Müdafiə Fondundan zəruri məlumatlar əldə edilir və gələcəkdə elektron mübadilənin qurulması üçün tədbirlər nəzərdə tutulur.

Siyahıya alınmış əmlakların açıq hərracda satışını təşkil edən Ədliyyə Nazirliyi icra strukturları ilə işgüzar münasibətlər qurmuşdur. Növbəti aydan başlayaraq, siyahıya alınaraq açıq hərraca çıxarılan əmlaklar barədə daha ətraflı məlumatların və onların fotolarının Vergilər Nazirliyinin internet səhifəsində yerləşdirilməsi planlaşdırılır. Hesab edirəm ki, bu da əmlakların hərraclarda daha tez satılmasına imkan verəcəkdir.

Eyni zamanda, icra strukturları ilə borcların alınması istiqamətində qurulan digər iş tələbin icraya yönəldilməsi tədbirləridir. 2012-ci ildən başlayaraq kiçik həcmli borclar məhkəmə qərarları olmadan «tələbin icraya yönəldilməsi haqqında qərarlar» çıxarılmaqla birbaşa icra strukturlarına yönəldilir. Çıxarılmış qərarlar üzrə dövlət büdcəsinə 459,7 min manat borc alınmışdır.

***- Cari ildə vergilər üzrə borcların alınması ilə bağlı Vergi Məcəlləsinin 65-ci və digər maddələrinə bir sıra dəyişikliklər edilmişdir. Bu dəyişikliklərin vergi orqanları üçün üstün cəhətləri nədən ibarətdir?***

- «Azərbaycan Respublikasının Vergi Məcəlləsində əlavə və dəyişikliklərin edilməsi haqqında» 2012-ci il 21 dekabr tarixli Qanunda Məcəllənin 65-ci maddəsinə edilmiş dəyişiklik vergi ödəyicilərinin hüquqlarının müdafiəsinə yönəlibdir. 65.2-ci maddəyə edilən dəyişiklik vergi orqanı tərəfindən kameral və səyyar vergi yoxlamaları ilə hesablanmış vergilər, faizlər və maliyyə sanksiyalarından məhkəməyə şikayətin verilməsi, bu dövrdə vergi ödəyicisinin pul vəsaitlərinin yalnız məhkəmənin müvafiq qərarına uyğun olaraq dövlət büdcəsinə alınması qaydasını tənzimləyir.

**Müsahibəni hazırladı:**
**Arzu İBRAHİMOVA**

# Tədrisin təşkili üzrə təcrübə mübadiləsi aparılmışdır

Aprelin 16-dan 18-dək vergi əməkdaşları üçün tədrisin təşkili sahəsində təcrübə mübadiləsi məqsədilə Azərbaycan Respublikası Vergilər Nazirliyinin nümayəndə heyəti Birləşmiş Krallığın Gəlir və Gömrük İdarəsində səfərdə olmuş, müxtəlif mövzular ətrafında geniş müzakirələr aparılmışdır. Birləşmiş Krallığın Gəlir və Gömrük İdarəsinin Təlim Mərkəzinin müxtəlif təlimçiləri tərəfindən tədris ehtiyaclarının müəyyənləşdirilməsi və təsnifatı, karyeranın idarə olunması, təlim proqramının hazırlanması, bacarıqların idarə olunması və peşə hazırlığı, liderlik və idarəetmə, Vergi Akademiyası proqramı, Tədrisin İdarəetmə Sistemi (OLL), təlim prosesinin təşkili, təlimçilərin seçilməsi meyarları və s. mövzulara dair geniş metodiki şərhlər verilmişdir.

Azərbaycan nümayəndələri Vergilər Nazirliyinin strukturu, yaranma tarixi, insan resurslarının inkişafı konsepsiyası, Tədris Mərkəzinin fəaliyyəti, tədris sistemi, texniki imkanları və beynəlxalq əməkdaşlıq potensialı barədə məlumat vermişlər. Təlim prosesində Britaniyanın vergi tədrisi sistemi ilə Azərbaycan sisteminin müqayisəli təhlili aparılmış, təkliflərin formalaşması üçün zəmin hazırlanmışdır.

Tədbirdə Vergilər Nazirliyini Beynəlxalq münasibətlər və vergi ödəyicilərinə xidmət sahələri üzrə nazirin müşaviri Ələkbər Məmmədov, Vergilər Nazirliyinin Tədris Mərkəzinin rəisi Ceyhun Yusifov, Tədris Mərkəzinin İqtisadiyyat və menecment kafedrasının müdiri Pərviz Rzayev və Tədris və metodika şöbəsinin rəisi Ramiz Məhərrəmov təmsil etmişlər.

# Elektron ticarətin vergiyə cəlb edilməsi

Vergilər Nazirliyinin Beynəlxalq münasibətlər idarəsinin rəis müavini İlqar Əkbərli və İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş İdarəsinin şöbə rəisi Telman Hüseynli Türkiyənin Ankara şəhərinin Gəlir İdarəsində və Vergi Auditi Departamentində elektron ticarət və onun vergiyə cəlb edilməsi sahəsində təcrübə mübadiləsində olmuşlar. Tədbir zamanı Türkiyədə elektron ticarət subyektlərinin vergi qeydiyyatı prosesi, onların təqdim etdikləri bəyannamələr və ödədikləri vergilər, eləcə də bu sahədə olan fərqli xüsusiyyətlər öyrənilmişdir. Səfər çərçivəsində Türkiyədə elektron ticarətdə vergidən yayınmanın qarşısının alınması məqsədilə tətbiq olunan vergi nəzarəti mexanizmləri, banklar və karqo şirkətləri tərəfindən vergi orqanına təqdim olunan məlumatların təhlili prosesləri, vergi risklərinin aşkar edilməsi və bu sahədə görülən işlər də müzakirə edilmişdir. Tədbirin mövzuları arasında elektron ticarətin inkişafı, həmçinin vergi və mühasibat uçotunda səmərəliliyin artırılması məqsədilə Türkiyə Gəlir İdarəsi tərəfindən həyata keçirilən e-faktura (e-qaimə) və e-dəftər (e-mühasibat) layihələri də xüsusi yer tutmuşdur.



Akif Musayev
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin
Vergi siyasəti və strateji araşdırmalar
Baş İdarəsinin rəisi

## Rakurs

# Vergi krediti

Vergi ödəyicilərinin əsas vəzifələrindən biri fəaliyyətlərində meydana çıxan vergitutma obyektlərindən müvafiq vergiləri qanunvericiliklə müəyyən edilmiş müddətlərdə hesablayıb dövlət xəzinəsinə ödənilməsindən ibarətdir. Buna əməl olunmasının təmin edilməsi məqsədilə qanunvericilikdə vergilərin vaxtında ödənilməməsinə görə vergi ödəyicisinə hər bir ötmüş gün üçün ödənilməmiş vergi məbləğindən müəyyən dərəcə ilə faizin hesablanması nəzərdə tutulur. Təcrübə göstərir ki, vergilərin vaxtında ödənilməməsi əksər hallarda maliyyə vəsaitlərinin kifayət qədər olmaması səbəbindən irəli gəlir.

Qeyd etmək lazımdır ki, maliyyə vəziyyəti çətin olan vergi ödəyicilərinə verginin vaxtında ödənilməməsinə görə faizlərin hesablanması onun maliyyə vəziyyətini daha da ağırlaşdıra və son nəticədə iflasa uğramaq təhlükəsi yarada bilər. Vergi ödəyicisinin maliyyə vəsaitlərinin kifayət qədər olmaması təkcə vergi öhdəliklərinin vaxtında yerinə yetirilməsinə deyil, həm də istehsal bazasının genişləndirilməsinə, müasir texnika və texnologiyaların tətbiq olunmasına, rəqabət qabiliyyətli məhsulların istehsalının təşkilinə mənfi təsir göstərmiş olur.

Bir çox hallarda belə vergi ödəyiciləri öz maliyyə imkanlarını banklardan götürülən kreditlər hesabına yaxşılaşdırmağa çalışırlar. Bununla yanaşı, beynəlxalq təcrübədə maliyyə imkanları məhdud olan vergi ödəyicilərinə vergi kreditinin verilməsi yolu ilə dövlət köməyi də göstərilir.

Vergi kreditlərinin banklardan götürülmüş kreditlərdən əsas fərqi ondan ibarətdir ki, bank kreditləri pul şəklində müəyyən faiz dərəcəsi ilə verilir, vergi kreditlərinin verilməsi isə vergi ödəyicisi tərəfindən dövlət xəzinəsinə ödənilməli olan vergi borcundan heç bir faiz ödənilmədən müəyyən müddət ərzində istifadə olunmasını nəzərdə tutur. Buna görə də vergi kreditinin verilməsi dedikdə, vergi öhdəliyinin yerinə yetirilməsi müddəti dəyişdirilməklə onun uzadılması başa düşülür.

Beynəlxalq təcrübədə vergi öhdəliklərinin yerinə yetirilməsi müddətinin dəyişdirilməsi qısa və uzun müddətə ola bilər. Qısamüddətli kreditlər adətən 2 aydan 6 ayadək və yaxud 3 aydan 12 ayadək olan müddətləri əhatə edir. Uzunmüddətli vergi kreditləri isə 1 ildən 5 ilədək olan dövrə verilir. Uzunmüddətli vergi kreditləri müəyyən investisiya layihəsinin yerinə yetirilməsi məqsədləri üçün verilir və vergi terminologiyasında «investisiyalı vergi krediti» kimi adlandırılır. Qısamüddətli vergi kreditləri ilə investisiyalı vergi kreditləri arasındakı əsas fərq ondan ibarətdir ki, qısamüddətli kreditlərin verilməsi vergi ödəyicisinin çətin maliyyə vəziyyətindən irəli gəlir, investisiyalı vergi kreditləri isə daha uzun müddətə verilir və investisiya qoyuluşu edilən layihələrin stimullaşdırılmasını nəzərdə tutur.

Qeyd olunmalıdır ki, istər qısamüddətli, istərsə də uzunmüddətli vergi kreditləri verilməklə vergi öhdəliklərinin yerinə yetirilməsi müddətlərinin dəyişdirilməsi heç bir halda vergi öhdəliyinə xitam verilməsi sayılmır. Bu, sadəcə olaraq, yalnız vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin daha gec olan müddətə dəyişdirilməsini nəzərdə tutur. Buna görə də vergi krediti verildiyi halda, vergi ödəyicisi tərəfindən müvafiq vergi öhdəliyinin qanunvericiliklə müəyyən olunmuş müddətdə yerinə yetirilməməsi vergi qanunvericiliyinin tələblərinin pozulması halı sayılmır və verginin vaxtında ödənilməməsinə görə ona qarşı faizlər hesablanmır. Lakin bütün hallarda vergi kreditləri müəyyən şərtlər daxilində və vergi ödəyicisi tərəfindən verilmiş müəyyən zəmanət əsasında həyata keçirilir. Bununla əlaqədar olaraq, vergi kreditlərinin verilməsi şərtləri vergi ödəyicisi tərəfindən pozulduğu halda, vergi kreditinə xitam verilir və verginin vaxtında ödənilməməsinə görə faizlərin hesablanması bərpa olunur.

Azərbaycan Respublikasında vergi ödəyicilərinə vergi kreditlərinin verilməsini tənzimləyən normalar Vergi Məcəllsində öz əksini tapmışdır. Məcəllədə hər bir verginin ödənilmə müddətləri müəyyən olunmuş və vergilərin ödənilmə müddəti pozulmaqla ödənilməsinə görə vergi ödəyicisindən hər bir ötmüş gün üçün ödənilməmiş vergi məbləğinin 0,1 faizi həcmində faiz tutulur.

Vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin dəyişdirilməsi (vergi kreditinin verilməsi) Vergi Məcəlləsinin 85-ci maddəsi ilə müəyyən olunmuşdur. Həmin maddəyə əsasən, vergi öhdəliklərinin yerinə yetirilməsi müddətləri 1 aydan 9 ayadək aşağıda göstərilən halların biri olduqda dəyişdirilə bilər:

- təbii fəlakət və digər qarşısıalınmaz qüvvə nəticəsində vergi ödəyicisinə zərər dəydikdə;
- vergini birdəfəyə ödədiyi təqdirdə, vergi ödəyicisinin iflasa uğramaq təhlükəsi olduqda.

Göstərilən müddət ərzində vergi ödəyicisinə faizlər hesablanmır. Vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması vergi ödəyicisinin yazılı şəkildə əsaslandırılmış və onun tərəfindən vergi öhdəliyinin yerinə yetirilməsi üçün müvafiq girovun və ya zəmanətin verildiyini özündə əks etdirən müraciəti əsasında vergi orqanının çıxardığı qərara uyğun olaraq həyata keçirilir.

Eyni zamanda, Vergi Məcəlləsi ilə müəyyən edilmişdir ki, vergi ödəyicisinə münasibətdə vergi qanunvericiliyinin pozulması ilə bağlı cinayət işi qaldırılıbsa, vergi öhdəliyinin yerinə yetirilməsi müddəti uzadıla bilməz.

Bunlarla belə, vergi kreditlərinin səmərəliliyinin daha da artırılması üçün bu sahədə qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi və qanunvericilikdə müvafiq dəyişikliklərin edilməsi diqqət mərkəzində olan məsələlərdən biridir.

# «İnsan resurslarının inkişafı sahəsində Vergilər Nazirliyinin mühüm nəticələri var»

*Beynəlxalq ekspert Vinfrid Şveyn Tədris Mərkəzində keçirilmiş kursun nəticələrini müsbət dəyərləndirir*

Vergilər Nazirliyinin Tədris Mərkəzində beynəlxalq ekspert Vinfrid Şveynin iştirakı ilə insan resurslarının idarə olunması sahəsində üçgünlük təlim kursu keçilmişdir. Kursun məqsədi insan resurslarının inkişafı sahəsində beynəlxalq təcrübənin öyrənilməsi, ən qabaqcıl nümunələrin tətbiqi imkanlarının araşdırılması, gələcəkdə insan resurslarının idarə olunması sahəsində təlimçilər komandasının yaradılması olmuşdur. Tədbirdə vergilər nazirinin Beynəlxalq münasibətlər və vergi ödəyicilərinə xidmət sahələri üzrə müşaviri Ələkbər Məmmədov, İnsan resursları idarəsinin rəisi Faiq Şahbazov, habelə Vergilər Nazirliyinin digər aidiyyəti strukturlarının əməkdaşları iştirak etmişlər.

Kurs zamanı Vergilər Nazirliyinin insan resurslarının inkişafı konsepsiyası, o cümlədən bu sahədə prioritet istiqamətlər - liderlik, motivasiya, qiymətləndirmə, təlim, işçilərin müstəqil düşünmək, qərar qəbul etmək bacarığı, kollektivdə birgə fəaliyyət göstərmək, habelə riskləri idarə etmək qabiliyyətinin inkişafı məsələləri müzakirə edilmişdir.

Tədbirin yekunları ilə bağlı qəzetimizə açıqlama verən almaniyalı ekspert Vinfrid Şveyn insan resurslarının inkişafının hər bir dövlət və biznes qurumunun fəaliyyətində prioritet məsələlərdən biri olduğunu bildirmişdir. Qeyd olunmuşdur ki, Azərbaycanın Vergilər Nazirliyinin bu sahədə dünyanın ən qabaqcıl ölkələrinin təcrübəsini öyrənməyə çalışması onun insan resurslarının inkişafına xüsusi əhəmiyyət verməsinin bariz göstəricisidir. Təlim kursunun yekunlarını müsbət dəyərləndirən ekspert müzakirə olunan mövzuların gələcək fəaliyyət istiqamətlərinin düzgün qurulması baxımından əhəmiyyətini önə çəkmişdir: «Vergilər Nazirliyinin yüksək təşkilatçılığı ilə baş tutan bu kurs insan resursları sahəsində rəhbər vəzifəli şəxslərin məlumatlandırılması, onların hazırkı və gələcək fəaliyyətlərinin səmərəli qurulması baxımından faydalı oldu. Tədbirdə insan resursları siyasəti və strategiyası, insan resurslarının idarə olunması, işçilərin şirkətin inkişafı prosesinə inteqrasiyası üçün tətbiq olunan üsul və alətlər, həmkarlar ittifaqları arasında əməkdaşlıq modelləri və s. geniş müzakirə edildi».



Vergilər Nazirliyinin insan resursları sahəsində fəaliyyətinin onda yaxşı təəssürat yaratdığını deyən Vinfrid Şveyn mövcud strategiyanın yeni dövrün tələblərinə cavab verdiyini qeyd etmişdir: «İnsan resursları sahəsində gələcəyi görmək, yeni çağırışlara cavab vermək son dərəcə vacibdir. Bu baxımdan, Vergilər Nazirliyinin həmin sahənin inkişafına verdiyi önəmi yüksək dəyərləndirirəm. Üçgünlük kursdan əvvəl Vergilər Nazirliyinin İnsan resusları idarəsində oldum, nazirliyin rəhbər şəxsləri ilə bu sahədə həyata keçirilən tədbirləri müzakirə etdik. Bu görüşlər seminarın təşkili üçün yaxşı təsəvvür yaratdı. Əmin oldum ki, nazirlik bu sahədə işini müasir tələblərə uyğun qurur, daim irəliyə baxır. Sevindirici haldır ki, Vergilər Nazirliyinin bununla bağlı strategiyası mövcuddur».

Ekspert Vergilər Nazirliyi əməkdaşlarının peşə hazırlığı səviyyəsinin qənaətbəxş olduğunu, onların kursda fəallıq nümayiş etdirdiklərini razılıqla vurğulamışdır: «İşçilərin qiymətləndirilməsi ilə bağlı daha çox müzakirələr apardıq. Qiymətləndirmə üzrə beynəlxalq meyarlar barədə iştirakçılara geniş məlumat verdim. Liderin məsuliyyət və vəzifələrindən, liderlə menecer arasındakı fərqdən danışdıq. Liderin kadrların peşəkarlığının, təcrübəsinin artırılması sahəsində görməli olduğu işlər də geniş müzakirə olundu. Kurs iştirakçılarının müstəqil şəkildə hazırladıqları qiymətləndirmə meyarları məndə xoş təəssürat yaratdı».

Kursda iştirak etmiş vergi əməkdaşları mühüm bilik və vərdişlərə yiyələndiklərini, belə tədbirlərin səmərəli olduğunu bildirmişlər. 3 saylı Ərazi Vergilər İdarəsinin koordinasiya şöbəsinin rəisi Əmrah Xudayev: «Kurslarda liderlik, motivasiya, qiymətləndirmə və digər məsələlər barədə ətraflı məlumat aldım. Vergilər Nazirliyinin kadrların hazırlıq səviyyəsinin yüksəldilməsi məqsədilə təşkil etdiyi belə tədbirlər olduqca səmərəlidir».

Bakı şəhəri Vergilər Departamentinin Hüquq İdarəsinin rəisi Sərxan Məmmədov: lKursda menecer və liderin oxşar və fərqli xüsusiyyətləri, menecerin işçilərə yanaşma tərzi, liderin menecerə və işçilərə münasibəti və digər məsələlər barədə dolğun bilgilər aldım. İdarəetmənin 3 üsulunun - Avtoritar, Demokratik və Müstəqil idarəetmə üsullarının olduğunu öyrəndim. Menecer və liderliyin fərqini və digər əldə etdiyim məlumatları «Məlumat saatı» məşğələlərində işçilərə də izah edəcəyəm».

Vergilər Nazirliyi Hüquq İdarəsinin rəis müavini Zeynalabdin Məmmədzadə: lTreninqin maraqlı olmayacağını düşünürdüm. Təlimi deyən ekspertin yalnız nəzəriyyədən və ümumi prinsiplərdən danışacağını gözləyirdim. Təlim müddətində bu qədər sual-cavab və müzakirə aparılacağını gözləmirdim. Hesab edirəm ki, kurs yüksək səviyyədə keçdi və qiymətləndirmə prosesi və meyarlarının mənimsənilməsi baxımından faydalı oldu. Bu kimi təlimlərin Vergilər Nazirliyin digər departament və ərazi vergilər idarələrində də keçirilməsi yaxşı olardı».

**S.MUSTAFAYEV**

vergi cinayətləri

## Vergidən yayınma cinayət məsuliyyəti yaradır

Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən həyata keçirilən istintaq tədbirləri nəticəsində Müşviq Quliyevin «Quba Buzbulaq» MMC-nin, Kamil Mustafayevin isə «Qlobal Servise» MMC-nin direktoru vəzifəsində çalışarkən Azərbaycan Respublikası Vergi Məcəlləsinin 16.1.1, 16.1.4, 16.1.6, 53.1, 72, 77.3, 78.1, 159.5-ci və 103.1, 155-157-ci maddələrinin tələblərini pozaraq, xeyli miqdarda vergiləri dövlət büdcəsindən yayındırdıqları aşkar olunmuşdur. M.Quliyev 2011-ci ilin fevral ayı üzrə vergi tutulan əməliyyatlar üzrə dövriyyənin olmaması haqqında bəyannamə verərək, 7623 manat məbləğində əlavə dəyər vergisini dövlət büdcəsindən yayındırmışdır. K.Mustafayev isə «Qlobal Servise» MMC-ni əlavə dəyər vergisi məqsədləri üçün qeydiyyata aldırmadan fəaliyyət göstərərək, ümumilikdə 39.352,09 manat məbləğində vergini büdcədən yayındırmışdır. Hər iki iş üzrə istintaq zamanı müəyyən edilmiş hallar iş materialları, o cümlədən şahid ifadələri, ekspert rəyi və s. dəlillərlə sübuta yetirilmişdir.

İş üzrə təqsirləndirilən şəxs qismində dindirilmiş K.Mustafayev Azərbaycan Respublikası CM-in 213.1-ci maddəsi ilə ona elan edilmiş ittihamla özünü qismən təqsirli bilmiş, öz əməlini «qanunu bilmədiyi» ilə izah etməyə çalışmışdır. Lakin onun bu «izahı» hüquqi baxımdan əsasssızdır: Azərbaycan Respublikasının Konstitusiyasının 72-ci maddəsinin 3-cü bəndinə görə, qanunu bilməmək heç kəsi məsuliyyətdən azad etmir.

Azərbaycan Respublikası Vergi Məcəlləsinin 155.1-ci maddəsinin tələbinə görə (Sahibkarlıq fəaliyyəti göstərən və ardıcıl 12 aylıq dövr ərzində vergi tutulan əməliyyatların həcmi 150 min manatdan artıq olan hüquqi və 90 min manatdan artıq olan fiziki şəxslər) həmin dövr başa çatdıqdan sonra 10 gün ərzində vergi orqanına ƏDV-nin məqsədləri üçün qeydiyyata dair ərizə verməyə borcludur. Odur ki, 2010-cu ilin aprel ayında «Qlobal Servise» MMC-yə 338 min manat pul daxil olduğundan və cəmiyyətin ardıcıl 12 aylıq dövr ərzində vergi tutulan əməliyyatlarının həcmi 150 min manatı keçdiyindən K.Mustafayevin ƏDV ödəyicisi kimi qeydiyyata dair ərizə vermək öhdəliyi yaranmışdı. Bu səbəbdən də o, sonrakı hesabat dövrünün başlanğıcından etibarən vergi ödəyicisi sayılırdı və ərizə verməyə borclu idi...

Hər iki cinayət işi üzrə toplanmış sübutlar əsasında M.Quliyev və K. Mustafayev təqsirləndirilən şəxs qismində cəlb edilərək onlara Azərbaycan Respublikasının CM-in 213.1-ci maddəsi ilə ittiham elan olunmuş və barələrində «başqa yerə getməmək haqqında iltizam» qətiimkan tədbiri seçilmişdir.

Quba Rayon Məhkəməsinin hökmü ilə M.Quliyev CM-in 213.1-ci maddəsilə təqsirli bilinib, CM-in 46.2-ci maddəsinə əsasən 2 il müddətinə dövlət və yerli özünüidarə orqanlarında rəhbər vəzifə tutma hüququndan məhrum edilməklə 2 il müddətinə azadlıqdan məhrumetmə ilə cəzalandırılmışdır.

K.Mustafayev isə Binəqədi Rayon Məhkəməsi tərəfindən CM-in 213.1-ci maddəsi ilə nəzərdə tutulan cinayət əməlini törətməkdə təqsirli bilinərək 1 il altı ay müddətinə dövlət və yerli özünüidarə orqanlarında maddi-məsul vəzifə tutma hüququndan məhrum edilməklə, qazancından dövlət nəfinə 20% məbləğində pul tutulmaqla 2 il müddətinə islah işləri cəzasına məhkum edilmişdir.

**Arzu İBRAHİMOVA**

# «E-hökumət»in inkişafı ilə bağlı yeni Dövlət Proqramı

## Proqramda vergi ödənişlərinin elektronlaşdırılmasının təkmilləşdirilməsi başlıca prioritetlərdəndir

Azərbaycanda «E-hökumət»in qurulması dövlətin əsas strateji məqsədlərindən biridir və bu istiqamətdə həyata keçirilən sistemli tədbirlərin miqyasının daha da genişləndirilməsi vacib hesab olunur. Prezident Ilham Əliyev Nazirlər Kabinetinin 2013-cü ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında «Elektron hökumət»lə bağlı layihələrin çox mühüm əhəmiyyət kəsb etdiyini bildirərək bu istiqamətdə atılan addımların sürətləndirilməsinin zəruri olduğunu qeyd edib: «Biz korrupsiya, rüşvətxorluq üçün mövcud olan meydanı maksimum dərəcədə daraltmalıyıq. «Elektron xidmət», «Elektron hökumət» layihələri bu istiqamətdə atılan çox önəmli addımlardır. Məmur-vətəndaş ünsiyyəti bu istiqamətdə minimuma endirilməlidir. Yenə də inkişaf etmiş ölkələrin təcrübəsini biz maksimum dərəcədə tətbiq etməliyik. Buna görə də Azərbaycanda İKT sektorunun inkişafına daha da böyük diqqət göstərilməlidir və göstəriləcəkdir. Son aylar ərzində bu istiqamətdə çox ciddi addımlar atılmışdır. Onların içində «ASAN xidmət»in fəaliyyətini mən qeyd etmək istəyirəm».

### Elektron xidmətlərə çıxış üçün yeni imkanlar...

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi (RİTN) bu məqsədlə e-xidmətlərin və informasiya-kommunikasiya texnologiyalarının tətbiqini artırmaq niyyətindədir. «2013-2015-ci illərdə elektron hökumətin inkişafı Dövlət Proqramı» «Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı»nın davamı hesab olunur. Layihənin ümumi prioritetləri dövlət orqanlarında müasir İKT-dən istifadəni genişləndirməklə idarəetmənin yeni metod və mexanizmlərinin hazırlanması, «e-hökumət» infrastrukturunun yeni komponentlərinin yaradılması, dövlət qurumlarının fəaliyyətinin səmərəliliyinin artırılması, şəffaflığın təmin edilməsi, vətəndaşların hökumət orqanları ilə əlaqələrinin daha sadə və münasib elektron üsullarla həyata keçirilməsi, onların «e-hökumət» xidmətlərinə çıxışının daha geniş təmin olunmasından ibarətdir.

Ötən müddət ərzində «Elektron hökumət»in qurulması sahəsində xeyli işlər görülüb: dövlət orqanlarının «E-hökumət» portalına inteqrasiyası sürətlənib, elektron sənəd dövriyyəsi genişlənib. Elektron xidmətlərin «bir pəncərə» prinsipi əsasında təşkilinin təmin edilməsi məqsədi ilə www.e-gov.az vahid elektron hökumət portalının yaradılması dövlət orqanlarının bu sistemə inteqrasiyasının sürətlənməsinə təkan verib. Bu istiqamətdə ciddi tədbirlərdən biri elektron imza sisteminin hazırlanaraq istifadəyə verilməsi olub. E-imzanın tətbiqi artıq bütün dövlət qurumlarının elektron xidmətlər göstərməsinə baza yaradıb. «Elektron hökumət»in tətbiqi ölkəmizin iqtisadi-siyasi-sosial həyatında mühüm dönüş yaradıb və idarəetmə sisteminin təkmilləşməsinə təkan verib. Dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, dövlət-biznes münasibətlərinin yaxşılaşması, onların elektron xidmətlər göstərməsi sayəsində vətəndaşların müraciətlərinə daha operativ şəkildə baxılması «e-hökumət» çərçivəsində həyata keçirilən ciddi tədbirlərin nəticəsidir.

Bunlarla yanaşı, dövlət orqanları tərəfindən əhaliyə bütün xidmətlərin vahid məkandan, daha keyfiyyətli və rahat həyata keçirilməsi məqsədi ilə 2012-ci ildə Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin təsis edilməsi və bu qurumun nəzdində «ASAN xidmət» mərkəzlərinin fəaliyyətə başlaması öz mühüm təsirini göstərməkdədir.

### Vətəndaşlar üçün «Açıq qapı» forumları...

Yeni «Elektron hökumət» proqramında müəyyənləşdirilmiş əsas hədəflər sırasında elektron xidmətlərin təkmilləşdirilməsi, dövlət orqanları arasında elektron informasiya dövriyyəsinin təmin edilməsi məqsədi ilə vahid sistemin işinin gücləndirilməsi, regionlarda əhalinin elektron xidmətlərdən istifadə imkanlarının artırılması, e- xidmətlər göstərilməsi üzrə qiymətləndirmələrin ictimaiyyətə açıqlanması, maliyyə orqanlarının fəaliyyətində şəffaflığın artırılması və maliyyə nəzarətində informasiya texnologiyalarının tətbiqi və elektron nəzarət sisteminin yaradılması mühüm yer tutur.

«E-hökumət» proqramında dövlət orqanlarının fəaliyyətində ictimaiyyətin iştirakının genişləndirilməsi, ictimai əhəmiyyət kəsb edən qanun layihələrinin hazırlanması prosesinə vətəndaş cəmiyyəti nümayəndələrinin cəlb edilməsi, ictimai dinləmələrin keçirilməsi, əhaliyə xidmət göstərən dövlət orqanları tərəfindən vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq şəbəkələrinin yaradılması da əsas tədbirlər sırasındadır. Dövlət orqanları tərəfindən «Açıq qapı» vətəndaş forumlarının keçirilməsi, ictimai maraq kəsb edən qərarların qəbul edilməsi prosesində ictimaiyyətin iştirakını genişləndirmək vasitəsi kimi internet səhifələrindən istifadə olunması da nəzərdə tutulur.

İslahatların ən mühüm istiqamətlərindən biri bölgələrdə internet üzərindən ödənişlərin təmin edilməsidir. RİTN bu məqsədlə genişzolaqlı internet sisteminin yaxın iki il ərzində tam qurulmasını başa çatdıracaq. Genişzolaqlı internet şəbəkəsinin qurulması e-xidmətlərin spektrinin artmasına səbəb olacaq, «E-hökumət» portalına inteqrasiyasının sürətlənməsinə və yeni xidmətlərə qoşulmasına imkan verəcək.

### Nağdsız ödənişlərlə bağlı əsas hədəflər...

Dövlət Proqramında ödəniş sistemlərinin təkmilləşdirilməsi, nağdsız ödənişlərin həcminin genişləndirilməsi sayəsində işlərin sürətləndirilməsi, müasir elektron ödəmə xidmətlərinin yaradılması ilə əlaqədar layihələrin həyata keçirilməsi əsas hədəflərdəndir. Rüsumların, vergilərin, inzibati cərimələrin, kommunal xərclərin və digər inzibati ödənişlərin elektron qaydada ödənilməsinin təkmilləşdirilməsi üçün müvafiq qurumların birgə fəaliyyətinin inteqrasiyası, e-ödəmə strukturlarının fəaliyyətinin stimullaşdırılması və digər addımlar atılması nəzərdə tutulub. Elektron ödəniş xidmətlərinin və nağdsız ödəniş alətlərindən istifadənin genişləndirilməsi məqsədilə Milli Ödəniş Sisteminin infrastrukturunun təkmilləşdirilməsi nəzərdə tutulur. Bu istiqamətdə görüləcək tədbirlərə banklar tərəfindən elektron xidmətlərin çeşidinin artırılması, bank-müştəri münasibətlərinin elektronlaşması, kart infrastrukturunun genişləndirilməsi, ticarət, iaşə və xidmət sahələrində POS-terminalların quraşdırılmasının kütləviləşdirilməsi, «Azərpoçt» MMC-nin bütün xidmət şəbəkələrində maliyyə xidmətlərinin göstərilməsi və təşkilatın kart infrastrukturuna inteqrasiya olunması ilə regionlarda, xüsusilə kənd yerlərində elektron ödəniş xidmətlərinə çıxış imkanlarının yaradılması aiddir.

### Vergilər Nazirliyi qarşısında duran vəzifələr

Yeni Dövlət Proqramında Vergilər Nazirliyinin həyata keçirəcəyi tədbirlərin də istiqamətləri müəyyən olunub. Vergi nəzarəti və yoxlamaları prosesində şəffaflığın artırılması, vergi ödəyicilərinin zəruri məlumatlarla təmin edilməsi və vergi ödəyiciləri ilə təbliğat işinin təkmilləşdirilməsi, vergi orqanlarının fəaliyyətinin beynəlxalq təcrübəyə uyğunlaşdırılması sahəsində əlavə tədbirlərin görülməsi, vergilərin və digər ödənişlərin elektron qaydada ödənilməsinin daha da sürətləndirilməsi başlıca prioritetlərdən hesab olunur. E-bəyannamə, e-vergi hesab-fakturası və digər sənədlərin, ödənişlərin onlayn rejimdə ödənilməsinin sadələşdirilməsi, yeni texnoloji vasitələrdən istifadə, onlayn ödənişlərlə bağlı beynəlxalq standartlara cavab verən yüksək təhlükəsizlik sisteminin möhkəmləndirilməsi qarşıda duran əsas vəzifələr hesab olunur.

**Elbrus CƏFƏRLİ**

# Asiya İnkişaf Bankı: *2013-cü ildə Azərbaycanın qeyri-neft sektorunda dinamik artım gözlənilir*

Nazirlər Kabinetinin 2013-cü ilin birinci rübünün sosial-iqtisadi yekunları və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş iclası bir daha göstərdi ki, hökumətin iqtisadi siyasətində regional inkişaf tədbirlərinin prioritetə çevrilməsi əsaslı yanaşma olaraq tərəqqi prosesində davamlılığı təmin etmək məqsədindən irəli gəlir. Hesabat dövründə tarazlı və davamlı regional inkişafa, qeyri-neft sektorunun yüksəlişinə, infrasrukturun müasirləşdirilməsinə, sahibkarlıq mühitinin liberallaşdırılmasına, yoxsulluğun səviyyəsinin aşağı salınmasına, güclü insan kapitalının formalaşdırılmasına xidmət edən tədbirlər hökumətin diqqət mərkəzində olub.

Hesabat dövrünün sosial-iqtisadi göstəricilərindən söz açan Prezident İlham Əliyev ümumi daxili məhsulun 3,1%, iqtisadiyyatın qeyri-neft sektorunda isə 11,4% artımın olduğunu diqqətə çatdırmaqla, bunu son illərin ən yaxşı göstəricisi kimi dəyərləndirib: «2013-cü ilin birinci rübündə iqtisadi inkişaf özünü bir daha göstərdi. Xüsusilə qeyri-neft sektorundakı inkişaf məni çox sevindirir. Bu ilin birinci rübündə ümumi daxili məhsul 3,1 faiz artmışdır. Hesab edirəm ki, bu, çox yaxşı göstəricidir. Biz bu artımı qeyri-neft sektorunun hesabına əldə etmişik. Bu ilin birinci rübündə qeyri-neft sektorunun inkişafı 11,4 faiz olmuşdur».

Neft-qaz gəlirlərindən asılılığın ilbəil azaldılması məqsədilə iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən tədbirlər son 2 ildə qeyri-neft sektorunun ümumi daxili məhsuldakı xüsusi çəkisinin artmasına səbəb olub. Rəqabətədavamlı istehsal və emal müəssisələrinin yaradılması, yerli istehsalın stimullaşdırılması, sahibkarlara güzəştli maliyyə yardımı mexanizmlərinin gücləndirilməsi, habelə sənaye potensialının möhkəmləndirilməsi tədbirləri inkişaf dinamikasını qeyri-neft sektorunun xeyrinə dəyişib.

> *«Bu ilin birinci rübündə ümumi daxili məhsul 3,1 faiz artmışdır. Hesab edirəm ki, bu, çox yaxşı göstəricidir. Biz bu artımı qeyri-neft sektorunun hesabına əldə etmişik. Bu ilin birinci rübündə qeyri-neft sektorunun inkişafı 11,4 faiz olmuşdur».*
>
> **İlham ƏLİYEV,**
> **Azərbaycan Respublikasının Prezidenti**

Bu sahədə inkişaf tempinin neft-qaz sənayesini əhəmiyyətli dərəcədə üstələməsi bir sıra beynəlxalq təşkilatlar və maliyyə qurumları tərəfindən də müsbət dəyərləndirilir. Asiya İnkişaf Bankının «Asiyanın inkişafına nəzər-2013» adlı nəşrində yer almış iqtisadi icmal, bu baxımdan, xüsusi maraq doğurur. Bankın ekspertlərinin fikrincə, Azərbaycanda 2011-ci ildə müşahidə olunan durğunluqla müqayisədə 2012-ci ildə iqtisadiyyatın 2,2% artımı ölkədə qeyri-neft sektorunun inkişafının keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu göstərir: «2012-ci ildə neft sektoru azalsa da, digər sahələr sürətlə inkişaf edib. Neft ixracı tədiyyə balansında cari hesabın daralmasına səbəb olub, lakin əsasən neft və qaz sektoruna qoyulan birbaşa xarici investisiyalar artıb», - qurumun icmalında deyilir.

Nəşrdə qeyd olunur ki, Azərbaycan Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertlər və davamlı dövlət investisiyaları, eləcə də 2014-cü ildə nəzərdə tutulan neft hasilatı 2013-cü ildə 3,1%, 2014-cü ildə isə 4,8% iqtisadi artıma səbəb olacaq: «Qeyri-neft sektorunda inkişafı təşviq etmək və neft gəlirlərindən asılılığın azaldılması kimi hədəflər uzunmüddətli inkişafa əsas yaradır. 2013-cü il və sonrakı illərdə inkişafın aparıcı qüvvəsinin qeyri-neft sektoru olacağı gözlənilir».

Asiya İnkişaf Bankının ekspertləri hesab edirlər ki, planlaşdırılan büdcə xərcləri dövlət investisiyalarını dəstəkləyəcək, habelə banklarda kapitalın artırılması ilə bağlı Mərkəzi Bankın qərarı potensial olaraq özəl sektorun kreditləşməsinin artmasına təkan verəcək. Eləcə də icra edilməkdə olan regional inkişaf layihələri və özəl təşəbbüslər tikinti, kənd təsərrüfatı və xidmət sektorlarında illik artıma müsbət təsir göstərəcək. Qeyri-neft sektoru hesabına 2013-cü ildə ÜDM artımının 5,3% təşkil edəcəyi gözlənilir. Bu il ÜDM 71 milyard dollar səviyyəsində proqnozlaşdırılır və bu da 2009-cu ilin göstəricisini 29 milyard dollar ötür. Bu artımın 55%-nin məhz qeyri-neft sektorunun hesabına təmin edilməsi qarşıya məqsəd qoyulub. 2013-cü ilin ilk rübündə qeyri-neft sektoru üzrə vergi daxilolmalarının həcminin əsaslı şəkildə yüksəlməsi də müsbət gözləntilərə əsas yaradır. Ümumilikdə, infrastrukturun müasirləşdirilməsi, iş adamlarına istehsal yönümlü müəssisələrin açılması üçün güzəştli kreditlərin verilməsi, investisiya qoyuluşlarına maneçilik yaradan bürokratik amillərin aradan qaldırılması, elektron xidmətlərin həcminin genişləndirilməsi tədbirləri qeyri-neft sektorunun yüksəlişinə təkan verən müsbət amillər sırasında xüsusi vurğulana bilər. «Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı» çərçivəsində sahibkarlığın inkişafı istiqamətində həyata keçirilən tədbirlər səmərəliliyi ilə diqqəti çəkir. Sahibkarlığa Kömək Milli Fondu sahibkarların dövlətin maliyyə imkanlarından əlverişli şərtlərlə bəhrələnməsinin, xüsusilə qeyri-neft sektorunda investisiya layihələrinin reallaşdırılması məqsədilə uzunmüddətli kreditlər almasının səmərəli modelinə çevrilib.

2013-cü ilin birinci rübü ərzində Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə 606 sahibkara 81,3 milyon manat güzəştli kredit verilib və həmin kreditlər hesabına da 2380-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulur. 2012-ci ilin müvafiq dövrü ilə müqayisədə maliyyələşdirilmiş investisiya layihələrinin sayı 26%, verilmiş güzəştli kredit vəsaitinin həcmi 65,6%, yeni yaradılacaq iş yerlərinin sayı isə 11% artıb. Güzəştli kreditlərin 50,2%-i aqrar sahənin, 49,8%-i isə müxtəlif sənaye sahələrinin inkişafına yönəldilib. Bütün bu tədbirlərin isə 2013-cü ilin qarşıdakı dövründə qeyri-neft sektorunun artım dinamikasına müsbət təsir göstərəcəyi gözlənilir.

**S.MUSTAFAYEV**

# Səyyar vergi yoxlamaları

Vergi nəzarətinin ən səmərəli formalarından biri - səyyar vergi yoxlaması hesab olunur. Həmin yoxlamaların əsas vəzifələri aşağıdakılardır:

- vergilərin tam və vaxtında ödənilməsi, onların düzgün hesablanması məqsədilə yoxlanılan şəxsin maliyyə-təsərrüfat fəaliyyətinin hərtərəfli tədqiqi;
- tədqiq edilən sənədlərin məzmunundakı uyğunsuzluqların, vergi bəyannamələrinin tərtib edilməsində, mühasibat uçotunun aparılması qaydalarında pozuntu faktlarının aşkar edilməsi;
- müxtəlif növ vergilər üzrə vergitutma bazasının formalaşmasına aşkar edilmiş pozuntuların təsirinin təhlili;
- aşkar edilmiş vergi qanunvericiliyinin pozulması faktları üzrə dəlillərin toplanması və bu pozuntuların sənədlər əsasında öz əksini tapmasının təmin edilməsi;
- vergi ödəyicisinin vergitutma bazasını azaltması və ya vergini düzgün hesablamaması nəticəsində qismən və ya tam ödənilmiş vergi məbləğlərinin hesablanması;
- aşkar edilmiş pozuntuların aradan qaldırılması üçün təkliflərin hazırlanması və vergi ödəyicisinin məsuliyyətə cəlb edilməsi.

### Səyyar vergi yoxlamaları üçün vergi ödəyicilərinin seçilməsi

Yoxlama təyin edilməzdən əvvəl vergi ödəyicisi barədə vergi orqanında olan informasiyanın hərtərəfli təhlili mühüm əhəmiyyət kəsb edir. Çünki yoxlamanın aparılacağı vergi ödəyicisi haqqında məlumatın ilkin təhlili yoxlamanın aparılma müddətinə və ona sərf olunacaq əməyə xeyli qənaət etməyə, onun səmərəliliyini və məhsuldarlığını yüksəltməyə imkan verir. Növbəti səyyar vergi yoxlaması məqsədi ilə vergi ödəyicisinin seçilməsi aşağıdakı metodlara əsaslanaraq yerinə yetirilir:

*Təsadüfi audit seçilməsi:* bir sıra vergi ödəyiciləri arasında vergidən yayınmaya meyilli olan şəxslərin vergi auditinə cəlb edilməsi. Qanunvericilikdə nəzərdə tutulmuş digər halların olması bu metodun tərkib hissəsidir;

*Bəlli mənbələrə əsaslanan audit seçilməsi:* xüsusilə böyük şirkətlər və qabaqcıl sektorlar üzərində aparılması üçün lazımlı bir audit seçmə texnikası. Gömrük orqanlarının və digər mənbələrin rəsmi məlumatları ilə vergi ödəyicisi tərəfindən təqdim edilmiş hesabatlardakı məlumatlar arasında, eyni zamanda bəyannamələrdə və ya vergi orqanlarına təqdim olunmuş digər sənədlərdə vergidən yayınmaya səbəb olan uyğunsuzluqların araşdırılmasının səyyar vergi yoxlaması aparmadan mümkünsüzlüyi bu metodun tərkib hissəsidir;

*Digər məlumatlara istinad edən audit seçilməsi:* audit işini aparan şəxslərin illərcə təşkil etdikləri araşdırma təcrübələri əsasında doğru qərar verməyi təmin edəcək metod. Bu metodun tərkib hissələrini digər vergi və dövlət orqanlarının məlumatları, materialları, mənbəyi bəlli olan məlumatlar, vergi ödəyicisinin sonuncu 3 hesabat ili ərzində fəaliyyətinin vergi orqanları tərəfindən yoxlanılmaması təşkil edir;

*proqram təminatlı modellərlə audit seçilməsi:* vergi auditi məqsədi üçün risklərə əsaslanan avtomatlaşdırılmış seçmə metodu.

Qeyd edilən metodların hamısının bir-birini dəstəkləyəcək şəkildə vahid modellərdə cəmləşdirilərək istifadə edilməsi vergidən yayınma risklərini müəyyənləşdirir.

**2013-cü ilin I rübü ərzində mülkiyyət növlərinə görə başa çatan səyyar vergi yoxlamalarının sayı**




### Səyyar vergi yoxlamasının nəticələrinin statistik mənzərəsi

Respublika üzrə 2013-cü ilin ilk rübü ərzində 2179 vergi ödəyicisində səyyar vergi yoxlaması başa çatdırılmış, 2168 vergi ödəyicisində (99,5%) vergi qanunvericiliyinin pozulması halları aşkar edilmiş, 11 halda vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsindən imtina olunması haqqında qərar çıxarılmışdır. Başa çatdırılmış səyyar vergi yoxlamalarının 93,6%-ni (2040) növbəti, 6,4%-ni (139) isə növbədənkənar səyyar vergi yoxlamaları təşkil etmişdir. Ümumilikdə, hesabat dövrü ərzində 2012-ci illə müqayisədə başa çatan növbəti səyyar vergi yoxlamalarının sayı 23,0% (381) artmış, növbədənkənar səyyar vergi yoxlamalarının sayı isə 9,7 dəfə (1212) azalmışdır.

2013-cü ilin ilk rübü ərzində başa çatdırılmış 2179 səyyar vergi yoxlamasından 1350-si və ya 62%-i hüquqi, 829-u və ya 38%-i isə fiziki şəxslərdə aparılmışdır. Yoxlamalar zamanı 2579 vergi ödəyicisində mövcud iş yerlərinin qanunvericiliyə müvafiq qaydada rəsmiləşdirilməsi ilə bağlı operativ nəzarət tədbiri həyata keçirilmiş, 974 vergi ödəyicisində qanun pozuntusu aşkar edilmiş, 1993 nəfər fiziki şəxsin əmək müqaviləsi bağlanmadan işəgötürən tərəfindən işlərin yerinə yetirilməsinə cəlb edildiyi müəyyənləşdirilmiş, 924 daimi, 1041 müvəqqəti iş yerlərinin rəsmiləşdirilməsi təmin olunmuş, 1871 min manat maliyyə sanksiyası tətbiq edilmişdir

Cari ilin ilk rübü ərzində respublika üzrə başa çatdırılmış səyyar vergi yoxlamaları zamanı ümumilikdə 117,1 milyon manat əlavə vəsait hesablanmışdır ki, bunun da 69,6 milyon manatını (59,5%) əlavə hesablanmış vergi, 47,5 milyon manatını (40,5%) isə vergilərin yayındırılmasına və digər hüquq pozuntularına görə tətbiq edilmiş maliyyə sanksiyası təşkil etmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə hesablanmış əlavə vəsaitin ümumi məbləği 8,9 milyon manat (8,2%) artmışdır.

Təhlil zamanı müəyyən edilmişdir ki, 2012-ci ilin müvafiq dövrü müqayisədə cari ilin I rübü ərzində mənfəət vergisi üzrə cəmi əlavə hesablama 40,1%, əlavə dəyər vergisi üzrə 12,1%, digər vergilər üzrə 2,4 dəfə artmış, sadələşdirilmiş vergi üzrə 39,1%, ödəmə mənbəyində tutulan vergilər üzrə cəmi əlavə hesablama isə 23,1% azalmışdır.

**2013-cü ilin I rübü ərzində başa çatan növbəti və növbədənkənar səyyar vergi yoxlamalarının sayı**




**Arzu İBRAHİMOVA**

# Yeni ünvan reyestri sistemi yaradılacaq

### *Bu sistemin işə düşməsi, vergi orqanları ilə yanaşı, vergi ödəyicilərinin də işinə müsbət təsir göstərəcək*

*Ölkə Prezidenti İlham Əliyev 10 fevral 2012-ci il tarixdə «Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 27 noyabr tarixli fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında ünvan reyestrinin aparılması və daşınmaz əmlak obyektlərinə ünvan verilməsi Qaydaları»nda dəyişikliklər edilməsi barədə» fərman imzalamışdır. Artıq bu fərmana uyğun olaraq Bakının və respublikamızın digər şəhərlərinin küçə və prospektlərində binalara Avropa standartlarına uyğun, yeni qaydalarla ünvanların verilməsi və müasir dizaynlı lövhələrin vurulması işlərinə başlanmışdır.*

Layihənin həyata keçirilməsinə başlanmazdan əvvəl ölkəmizdə mövcud olan ünvan məlumatlarının vəziyyəti və bu sahədə mövcud problemlər hərtərəfli təhlil edilmiş, xarici ölkələrin qabaqcıl ünvan tətbiqi təcrübələri öyrənilmişdir. Əmlak Məsələləri Dövlət Komitəsindən verilən məlumata görə, artıq yeni qaydalara uyğun olaraq milli ünvan reyestrinin informasiya sistemi hazırlanması işləri yekunlaşmaq üzrədir. Bu sistem ölkə üzrə ünvan məlumatlarının vahidliyi, etibarlılığı və çevikliyini təmin edən geniş məlumat bazasına malik olacaq.



Yeni ünvan lövhələrinin dizaynı və istehsalı məqsədilə müqavilə bağlanmışdır və mart ayının sonundan həmin lövhələr ölkəmizə gətirilir. İlin sonunadək Bakı şəhəri üzrə 2500-dən çox küçə və prospekti əhatə edən ünvan lövhələrinin vurulması başa çatdırılacaq, il ərzində respublikanın digər şəhər və rayonlarında da bu iş həyata keçiriləcək. Ünvan lövhələrinin quraşdırılması işləri mərhələlərlə başa çatdıqdan sonra mütəmadi olaraq vətəndaşlara, dövlət təşkilatlarına, hüquqi şəxslərə, həmin ərazidə yaşayan sakinlərə yeni ünvanları barədə Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən müvafiq qaydada ətraflı məlumatlar veriləcəkdir.

Yeni və dəqiq ünvanların verilməsi, vahid ünvan reyestrinin aparılması, küçə və prospektlərdə binalara müasir dizaynlı lövhələrin vurulması dövlət tərəfindən həyata keçirilən sosial əhəmiyyətli layihə hesab olunur. Bu layihənin nəticələri vətəndaşlara, dövlət qurumlarına, bələdiyyələrə və təşkilatlara imkan verəcəkdir ki, ünvana və ünvan məlumatlarına çevik, vahid və etibarlı çıxış əldə etsinlər, müvafiq elektron xidmətlərdən istifadə edə bilsinlər. Sistem şəhərlərdə ünvanların tapılması, sosial və idarəetmə məsələlərinin həlli zamanı vaxt itkisini də minimuma endirəcək.

Əmlak Məsələləri Dövlət Komitəsi Kadastr Mərkəzinin direktoru Ramiz Quliyevin sözlərinə görə, daşınmaz əmlak obyektlərinə yeni ünvanların verilməsi nəticəsində vətəndaşların yeni şəxsiyyət vəsiqəsində əsaslı dəyişiklik edilməyəcək. Lakin şəxsiyyət vəsiqəsində yeni ünvanla bağlı məlumat elektron mətn şəklində yerləşdiriləcək. Yəni həmin küçələrin adları ilə yanaşı, onların yeni kodları da göstəriləcək. Bu isə onun dəyişməz unikal nömrəyə malik olmasını ifadə edir. Yeni ünvanların verilməsi sahəsində daha bir yenilik isə küçələrin kodlaşdırılması olacaqdır. Belə ki, küçələrin adlarından başqa, bu kodlar nömrələrlə ifadə olunacaq və dəyişməyəcək. Sistemdə koordinatlar elektronlaşdırıldığından GPRS sistemilə ünvanların və giriş qapılarının dərhal müəyyənləşdirilməsi mümkün olacaq.

Qeyd edək ki, Azərbaycanda ünvan reyestrinin yaradılmasına 2010-cu ilin sentyabrından başlanıb. Əmlak Məsələləri Dövlət Komitəsi və Norveçin Xəritəçəkmə Təşkilatı arasında imzalanmış «Azərbaycanda ünvan reyestrinin informasiya sisteminin yaradılması» layihəsinin həyata keçirilməsi üzrə Qrant Sazişi»nə uyğun olaraq, Norveç və Danimarkadan olan məsləhətçilər tərəfindən beynəlxalq və Avropa ünvanvermə təcrübəsi əsasında Azərbaycan üçün təkliflər və texniki spesifikasiyalar hazırlanmışdır. Yeni qaydalara uyğun ünvanların verilməsi işlərinin icrası məqsədilə Cənubi Koreyanın «SK C&C» Co LTD şirkəti tərəfindən 1,5 il ərzində Ünvan Reyestri İnformasiya Sisteminin yaradılması nəzərdə tutulur.

Yeri gəlmişkən, qeyd edək ki, bəzən borclu vergi ödəyicilərinin faktiki və ya hüquqi ünvanlarının müəyyən edilməsində bəzi çətinliklər üzə çıxır. Yeni Ünvan Reyestri İnformasiya Sisteminin yaradılması bu sahədə vergi orqanlarının işini asanlaşdırmış olacaq. Bu sistem vergi ödəyicilərinin, şirkətlərin özləri üçün də əlverişli olacaq...

**Rəşad SADIQOV**

# Sadələşdirilmiş vergi bəyannaməsi

## Hüquqi şəxslər üzrə 1№-li Əlavənin tərtib olunmasında mühasibat uçotu məlumatlarının düzgün yerləşdirilməsi

Qulu Soltanov,
sərbəst auditor

**Əvvəli ötən saylarımızda**

**Sətir 2.1.3 «Əvvəlki illər üzrə bölüşdürülməmiş mənfəət» «dövr ərzində daxil olmuşdur» sütununda:** müəssisələrin mühasibat uçotunun hesablar planında 88 №-li hesabın kredit dövriyyəsi üzrə illik yekun məbləği əks etdirilir və demək olar ki, yeganə DB80 - KR88 ikili yazılışı bu sütunda nəzərə alınır. Aydındır ki, əvvəlki ilin sonunda həmin il üçün xalis mənfəətin məbləği tapılır və həmin məbləğ 80 №-li hesabın kredit qalığı kimi balansda əks etdirilir. Həmin məbləğ əvvəlki ilin sadələşdirilmiş vergi bəyannaməsinin Əlavəsinin 2.1.2.-ci sətri üzrə «hesabat dövrünün sonuna» sütunundakı xanada əks etdirilir. Əvvəlki ilin sonuna əldə edilən xalis mənfəətin bölüşdürülməsi (xərclənməsi) barədə təsisçilər (səhmdarlar) tərəfindən hesabat dövründə qərarlar qəbul edilir. Əvvəlki ilin balansında 80№-li hesabın sonuna qalan (31 dekabra) qalıq cari ildə (01 yanvarda) əvvəlki ilin bölüşdürülməmiş mənfəəti halını alır və həmin məbləğ 01 yanvardan 88 №-li «bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)» hesabında uçota alınmalıdır. Bunun üçün də DB80 - KR88 ikili yazılışı verilməlidir.

**«təqdim edilmişdir, silinmiş, ləğv edilmişdir» sütununda:** *Təqdim edilmişdir:* boş saxlanılır. *Silinmişdir:* burada hesabat ilində 88№-li hesabın debet dövriyyəsi üzrə illik yekun məbləğini əks etdirmək lazımdır. *Ləğv edilmişdir:* boş saxlanılır.

***Misal 1.*** Müəssisə hesabat dövründə 4000 manat xalis mənfəət əldə etmişdir. Müəssisənin hesabat dövrünün əvvəlinə əvvəlki dövr üzrə xalis mənfəətin məbləği 5000 manat təşkil edir. Təsisçilər tərəfindən hesabat dövründə (məsələn, mart ayının 10-da) dividendlərin verilməsinə 3000 manat, alınması mümkün olmayan debitor borclarının ləğvinə 400 manat, kapital ehtiyatlarının yaradılmasına 800 manat vəsaitin ayrılması barədə qərar qəbul edilmişdir. Bu halda hesabat dövründə ikili yazılışlar aşağıdakı kimi olacaqdır *(bax: Cədvəl 1)*.

Göstərilən əməliyyatlar üzrə məbləğlər dövriyyə cədvəlində aşağıdakı kimi olacaqdır *(bax: Cədvəl 2)*.

Belə halda həmin göstəricilər bəyannamənin Əlavəsində aşağıdakı kimi əks etdirilməlidir *(bax: Cədvəl 3)*.

***Misal 2.*** Müəssisə hesabat dövrünü 2000 manat zərərlə başa vurmuşdur. Müəssisənin hesabat dövrünün əvvəlinə əvvəlki dövr üzrə xalis mənfəətin məbləği 5000 manat təşkil edir. Təsisçilər tərəfindən hesabat dövründə (məsələn, mart ayının 10-da) dividendlərin verilməsinə 1500 manat, alınması mümkün olmayan debitor borclarının ləğvinə 400 manat, kapital ehtiyatlarının yaradılmasına 800 manat vəsaitin ayrılması barədə qərar qəbul edilmişdir. Bu halda hesabat dövründə ikili yazılışlar aşağıdakı kimi olacaqdır *(bax: Cədvəl 4)*.

Göstərilən əməliyyatlar üzrə məbləğlər dövriyyə cədvəlində aşağıdakı kimi olacaqdır *(bax: Cədvəl 5)*.

Belə halda həmin göstəricilər bəyannamənin Əlavəsində aşağıdakı kimi əks etdirilməlidir *(bax: Cədvəl 6)*.

80 №-li hesabın debet dövriyyəsi üzrə 7000 manat iki hissəyə bölünməklə, yəni hesabat ilinin 2000 manat zərər məbləği «daxil olan digər aktiv» kimi, 5000 manat məbləğ isə əvvəlki ilin xalis mənfəətinin silinərək hesabat ilində daxil olan «əvvəlki illər üzrə bölüşdürülməmiş mənfəət» kimi Əlavədə əks etdirilir.

**Davamı növbəti sayımızda**

Cədvəl 1

| Əməliyyatların məzmunu | Debet | Kredit | Məbləğ |
|---|---|---|---|
| Hesabat dövründə əldə edilən xalis mənfəət | 46 | 80 | 4000 |
| 80№-li hesabın kredit qalığı əvvəlki illərin bölüşdürülməmiş mənfəəti hesabına keçirilir | 80 | 88 | 5000 |
| Təsisçilərə dividend hesablanıb | 88 | 75 | 3000 |
| Dividendin məbləğindən ödəmə mənbəyində vergi tutulub | 75 | 68 | 300 |
| Kapital ehtiyatlarının yaradılması | 88 | 86 | 800 |
| Alınması mümkün olmayan debitor borcların ləğvi | 88 | 62 | 400 |

Cədvəl 2

| Hesab №-si | Hesabın adı | 01 yanvar 2012-ci il tarixə qalıq | | 2012-ci ildə dövriyyə | | 01 yanvar 2013-cü il tarixə qalıq | |
|---|---|---|---|---|---|---|---|
| | | Debet | Kredit | Debet | Kredit | Debet | Kredit |
| 80 | Mənfəət və zərərlər | | 5000 | 5000 | 4000 | | 4000 |
| 88 | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | | 4200 | 5000 | | 800 |
| | Cəmi mənfəət (zərər) üzrə | | 5000 | 9200 | 9000 | | 4800 |

Cədvəl 3

| Göstəricilər | Dövr ərzində daxil olmuşdur, manatla | Təqdim edilmişdir, silinmiş, ləğv edilmişdir, manatla | Hesabat dövrünün sonuna, manatla |
|---|---|---|---|
| 2.1.2 Hesabat dövrünün xalis mənfəəti | 4000 | Təqdim edilmişdir:<br>Silinmişdir: 5000<br>Ləğv edilmişdir: | 4000 |
| 2.1.3 Əvvəlki illər üzrə bölüşdürülməmiş mənfəət | 5000 | Təqdim edilmişdir:<br>Silinmişdir: 4200<br>Ləğv edilmişdir: | 800 |

Cədvəl 4

| Əməliyyatların məzmunu | Debet | Kredit | Məbləğ |
|---|---|---|---|
| Hesabat dövrünün zərəri uçota alınır | 80 | 46 | 2000 |
| 80№-li hesabın kredit qalığı əvvəlki illərin bölüşdürülməmiş mənfəəti hesabına keçirilir | 80 | 88 | 5000 |
| Təsisçilərə dividend hesablanıb | 88 | 75 | 1500 |
| Dividendin məbləğindən ödəmə mənbəyində vergi hesablanıb | 75 | 68 | 150 |
| Kapital ehtiyatlarının yaradılması | 88 | 86 | 800 |
| Alınması mümkün olmayan debitor borcların ləğvi | 88 | 62 | 400 |

Cədvəl 5

| Hesab №-si | Hesabın adı | 01 yanvar 2012-ci il tarixə qalıq | | 2012-ci ildə dövriyyə | | 01 yanvar 2013-cü il tarixə qalıq | |
|---|---|---|---|---|---|---|---|
| | | Debet | Kredit | Debet | Kredit | Debet | Kredit |
| 80 | Mənfəət və zərərlər | | 5000 | 7000 | | 2000 | |
| 88 | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | | 2700 | 5000 | | 2300 |
| | Cəmi mənfəət (zərər) üzrə | | 5000 | 9700 | 5000 | 2000 | 2300 |

Cədvəl 6

| Göstəricilər | Dövr ərzində daxil olmuşdur, manatla | Təqdim edilmişdir, silinmiş, ləğv edilmişdir, manatla | Hesabat dövrünün sonuna, manatla |
|---|---|---|---|
| 1.10 Digər aktivlər | 2000 | Təqdim edilmişdir:<br>Silinmişdir<br>Ləğv edilmişdir: | 2000 |
| 2.1.2 Hesabat dövrünün xalis mənfəəti | | Təqdim edilmişdir:<br>Silinmişdir: 5000<br>Ləğv edilmişdir: | |
| 2.1.3 Əvvəlki illər üzrə bölüşdürülməmiş mənfəət | 5000 | Təqdim edilmişdir:<br>Silinmişdir: 2700<br>Ləğv edilmişdir: | 2300 |

# Qeyri-leqal miqrantlara qarşı mübarizə gücləndirilir

## *2013-cü ilin birinci rübündə Dövlət Sosial Müdafiə Fondunun fərdi uçot sistemində qeydiyyata alınan əcnəbilərin sayı 8,1% artmışdır*

Azərbaycanın əlverişli coğrafi mövqedə yerləşməsi, çoxşaxəli tranzit-kommunikasiya imkanlarına malik olması, habelə daxili əmək bazarının sürətlə inkişaf etməsi respublikamızı istər leqal, istərsə də qeyri-leqal miqrantlar üçün cəlbedici məkana çevirir. Müstəqilliyin ilk illərində - iqtisadi islahatlara yenicə başlandığı, əmək bazarında əcnəbi mütəxəssislərə ciddi ehtiyacın duyulduğu dövrdə ölkəyə işləməyə gələn qeyri-leqal miqrantlara münasibətdə nisbətən loyal mövqe nümayiş olunurdusa, Azərbaycanın son illərdəki inkişaf göstəriciləri bu proseslə bağlı dövlət tənzimlənməsini obyektiv zərurətə çevirmişdir. Bu zərurət həm də onunla şərtlənir ki, bütün sahələrdə əldə olunmuş yüksək nailiyyətlər - istehsal müəssisələrinin yaradılması yolu ilə yeni iş yerlərinin açılması, sahibkarlığın, eləcə də tikinti sektorunun sürətli inkişafı əcnəbi vətəndaşların respublikamıza marağını gücləndirmiş, miqrasiya proseslərinin intensivləşməsinə səbəb olmuşdur.

Miqrasiya məsələləri üzrə mütəxəssis Azər Allahverənovun bildirdiyinə görə, Azərbaycana viza ilə gələn əcnəbi və vətəndaşlığı olmayan şəxsin ölkədə qalma müddəti vizada göstərilən ölkədə olma müddəti ilə müəyyən edilir: «Ölkə ərazisinə viza tələb olunmayan qaydada gələn əcnəbi və ya vətəndaşlığı olmayan şəxsin ölkədə qalma müddəti isə 90 günədəkdir. Bu müddətin bitməsinə 22 iş günü qalmış həmin əcnəbilər Dövlət Miqrasiya Xidmətinə müraciət edərək müvəqqəti qalma müddətini uzatmalı, ya da ölkəni tərk etməlidirlər. Göstərilən müddət əcnəbi və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan ərazisində təcili müalicəsinə zərurət yarandıqda; onların burada yaşayan yaxın qohumları ağır xəstələndikdə və ya vəfat etdikdə; xidməti zərurətlə əlaqədar Azərbaycana gəlmiş əcnəbi və vətəndaşlığı olmayan şəxslərin işlərinin başa çatdırılmadığına dair həmin şəxsləri ölkəyə dəvət etmiş təşkilat tərəfindən əsaslandırılmış vəsatət verildikdə 3 ayadək uzadıla bilər».

Ekspert onu da bildirdi ki, əcnəbi və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikası vətəndaşı ilə yaxın qohumluq münasibətlərində olduqda; Azərbaycan Respublikası vətəndaşı ilə nikaha daxil olduqda; ölkə iqtisadiyyatına 500 min manat məbləğində investisiya qoyduqda; Azərbaycan Respublikasının banklarına 50 min manat məbləğində pul vəsaiti qoyduqda; Azərbaycan Respublikasının ərazisində əmək fəaliyyəti ilə məşğul olmaq üçün qanunvericiliklə müəyyən edilmiş qaydada fərdi icazə aldıqda; Azərbaycan Respublikasının təhsil müəssisələrində əyani təhsil aldıqda; iqtisadiyyat, sənaye, müdafiə, elm, mədəniyyət, idman və digər sahələr üzrə yüksək səviyyəli mütəxəssis olduqda onlara Azərbaycanda müvəqqəti yaşamaq üçün icazə verilə bilər.

Nazirlər Kabinetinin 4 iyun 2009-cu il tarixli qərarı ilə təsdiq olunmuş «Əmək miqrasiyası kvotasının müəyyən edilməsi Qaydaları»na əsasən, hər il ölkədə haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olan əcnəbilərin əmək miqrasiyası təsdiq edilir. 2011-ci ildə əmək kvotası 8708, 2012-ci ildə isə 11970 nəfər olmuşdur.

Bununla belə, öz ölkələrində normal yaşayış səviyyəsini təmin edə bilməyən insanların respublikamızda leqal və qeyri-leqal üsullarla işləməyə can atmaları bu kvotanın pozulmasına, işəgötürənlərlə əcnəbi işçilər arasında münasibətlərin leqallaşdırılmamasına, habelə onların sosial sığorta ödənişlərindən, vergilərdən yayınmasına səbəb olur.

Dövlət Miqrasiya Xidmətindən aldığımız məlumata əsasən, mart ayı ərzində 2577 əcnəbi və vətəndaşlığı olmayan şəxs tərəfindən Azərbaycanda olma, habelə müvəqqəti və daimi yaşama qaydalarına əməl etmədən inzibati qanunvericiliyin tələblərinin pozulması halları müəyyən edilmişdir. 2304 əcnəbi barəsində Azərbaycan Respublikası ərazisini 48 saat ərzində tərk etmə, 97 əcnəbinin inzibati qaydada ölkə hüdudlarından kənara çıxarılmaları barədə qərarlar qəbul edilmişdir. Ümumilikdə, ay ərzində əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən ölkədə müvəqqəti olma müddətlərinin uzadılması, müvəqqəti və daimi yaşamaq üçün icazələrin verilməsi, həmçinin əmək fəaliyyətinin həyata keçirilməsi üçün fərdi icazələrin verilməsi və digər məsələlərlə bağlı 5230 müraciətin daxil olması Azərbaycanın əmək bazarının əcnəbilər üçün cəlbedici olduğunu təsdiqləyir. Mart ayı ərzində işəgötürənin fərdi icazə almadan əcnəbini və ya vətəndaşlığı olmayan şəxsi haqqı ödənilən əmək fəaliyyətinə cəlb etməsi hallarının aşkar edilməsi məqsədilə Bakı şəhəri üzrə 47 sahibkarlıq subyektində yoxlamalar aparılmışdır. Keçirilmiş tədbirlər nəticəsində 18 sahibkarlıq subyektində əcnəbilərin Azərbaycan ərazisində haqqı ödənilən əmək fəaliyyətini həyata keçirməsi üçün fərdi icazənin verilməsi qaydalarının pozulması halları aşkarlanmış və qanuni tədbirlər görülmüşdür.

Bu və digər tədbirlərin nəticəsi olaraq, 2013-cü ilin birinci rübü ərzində Dövlət Sosial Müdafiə Fondunun (DSMF) fərdi uçot sistemində qeydiyyata alınan əcnəbilərin sayı 8,1% artmışdır. Aprelin əvvəlinə olan statistikaya əsasən, bu artımdan sonra fərdi uçot sistemindəki əcnəbilərin sayı 14864 nəfər təşkil edir. Ümumilikdə, 97 ölkənin vətəndaşlarını əhatə edən əcnəbilər arasında ən yüksək say göstəricisi Türkiyə vətəndaşları (8640 nəfər) üzrə müşahidə olunur. Fərdi uçot sistemində qeydiyyata alınan əcnəbilərin sayına görə ikinci yerdə qərarlaşan Gürcüstan vətəndaşlarının sayı 1659 nəfərə, üçüncü yerdə gələn Rusiya Federasiyası vətəndaşlarının sayı isə 756 nəfərə çatmışdır. Sonrakı yerlərdə İran İslam Respublikası (487), Hindistan (352), Çin Xalq Respublikası (338) və digər ölkələr gəlir.

**Samir MUSTAFAYEV**



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, sərbəst auditor

Audit

# Vergi Məcəlləsinin 73-cü maddəsi qeyri-qanuni gəlirlərə qarşı

Vergi uçotunda olmayan vətəndaş mal (iş, xidmət) təqdim edərkən vergidən yayınarsa və ya yayınmağa cəhd göstərərsə, alıcı (sifarişçi) vergi ödəyicisi tərəfindən 73-cü maddənin tələblərinin yerinə yetirilməsi ilə onun qarşısı alına bilər.

Vergi Məcəlləsinin 73-cü maddəsində göstərilir ki, görülmüş işlərin və ya göstərilmiş xidmətlərin haqqını ödəyən, yaxud hər hansı digər ödəmələr aparan şəxs qanunla müəyyən edilmiş hallarda və qaydada ödənilmiş məbləğlər haqqında vergi orqanına məlumat verməlidir. Burada məlumatın verilməsinin necə həyata keçirilməsi məsələsi ortaya çıxır.

Bu maddə üzrə «görülmüş işlərin və ya göstərilmiş xidmətlərin haqqını ödəyən şəxs» dedikdə, Məcəllənin 150.1.7-ci maddəsi üzrə vergi ödəyicisi kimi vergi orqanlarında uçota alınmayan, VÖEN təqdim etməyən fiziki şəxslərin göstərdiyi xidmətlərə (işlərə) görə həmin fiziki şəxslərə haqq ödəyən hüquqi şəxslər və ya fərdi sahibkarlar başa düşülür. «Hər hansı digər ödəmələr aparan şəxs» dedikdə isə vergi ödəyicisi kimi vergi orqanlarında uçota alınmayan, VÖEN təqdim etməyən fiziki şəxslərin təqdim etdiyi mallara görə həmin fiziki şəxslərə haqq ödəyən hüquqi şəxslər və ya fərdi sahibkarlar başa düşülməlidir.

Sifarişçi vergi ödəyicisi ona xidmət göstərən və ya iş görən, lakin vergi orqanlarında uçota alınmayan, VÖEN təqdim etməyən icraçı fiziki şəxslər barədə rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq təqdim olunan ödəmə mənbəyində tutulan vergi bəyannaməsində və bəyannamənin Əlavəsində əks etdirməklə məlumat verir və dolayısı ilə Vergi Məcəlləsinin 73-cü maddəsinin tələbini yerinə yetirmiş olur.

Malsatan, lakin vergi orqanlarında uçota alınmayan, VÖEN təqdim etməyən satıcı fiziki şəxslər barədə isə məlumatın verilməsi forması konkret olaraq Vergi Məcəlləsində və ya bəyannamələrdə göstərilməsə də, alıcı vergi ödəyicisi həmin fiziki şəxs barədə məlumatın verilməsini təmin etməlidir. Məsələn, elektron kargüzarlıq imkanlarından istifadə etməklə sair məktub şəklində malsatan fiziki şəxsin soyadı, adı, atasının adı, ünvanı, ödəmənin təyinatı, tarixi və məbləği və aparılan əməliyyatın digər mümkün əlamətləri barədə vergi orqanına məlumat verilməsi təmin edilə bilər.

Məlumat verildikdən sonra vergi orqanı tərəfindən həmin fiziki şəxslərin fəaliyyəti araşdırılır və satıcı fiziki şəxs Vergi Məcəlləsinin 102.1.11-ci maddəsinə uyğun olaraq bilavasitə özü istehsal etdiyi kənd təsərrüfatı məhsullarını satdığı və ya Vergi Məcəlləsinin 102.1.7-ci maddəsinə uyğun olaraq hazırkı sahibkarlıq fəaliyyətində və əvvəllər sahibkarlıq fəaliyyəti göstərmiş olduğu dövrlərdə sahibkarlıq məqsədləri üçün istifadə etmədiyi daşınar maddi əmlakı (qiymətli daşlar və metallar, qiymətli daşlar və metalların məmulatları, incəsənət əsərləri, əntiq əşyalar istisna olmaqla), Vergi Məcəlləsinin 102.1.9-cu maddəsi üzrə azı 3 il ərzində əsas yaşayış yeri olduğu daşınmaz əmlakı satdığı bəlli olarsa, onun vergi yükü və vergi ödəyicisi kimi uçota alınma öhdəliyi aranmır. Əks halda, Vergi Məcəlləsinin 33-cü və 34-cü maddələrinin müddəalarına uyğun olaraq, satıcı fiziki şəxslərin vergi orqanında vergi uçotuna durmaları üçün müvafiq tədbirlər həyata keçirilir. Sifarişçi tərəfindən təqdim olunan ödəmə mənbəyində tutulan vergi bəyannaməsindəki məlumatlar əsasında vergi orqanlarında aparılan araşdırma nəticəsində sifarişçi vergi ödəyicisinə xidmət göstərən və ya iş görən icraçı fiziki şəxslərə isə vergi orqanı tərəfindən mütləq qaydada vergi uçotuna durmaları tələbi irəli sürülür.

İzah edildiyi kimi, 73-cü maddənin tələblərinə əməl olunması nəticəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan, lakin vergi uçotuna alınmayan (VÖEN-i olmayan) fiziki şəxsin vergi orqanında vergi uçotuna alınması və onun vaxtında qeyri-qanuni gəlir əldə etməsinin qarşısının alınması, dolayısı ilə onun hətta cinayət məsuliyyəti astanasından geri qaytarılması təmin edilir.

Əslində, 73-cü maddə kifayət qədər vergi məlumatsızlığı olan fiziki şəxslərdə vergi mədəniyyətinin formalaşmasına xidmət edir. Ona görə də audit zamanı vergi ödəyicisinin mallarını (işlərin, xidmətlərin) alınması üzrə təsərrüfat əməliyyatlarında satıcı (icraçı) kimi çıxış edən, lakin VÖEN təqdim etməyən və ya vergi orqanlarında uçota alınmayan fiziki şəxslər barədə məlumatların rekvizitləri aydın göstərilməklə vergi orqanına verilməsi nəzərdən qaçırılmamalıdır. Bunun sayəsində hətta özlərinin qanunsuz gəlir əldə etməsini bilməyən və ya təsəvvür etməyən fiziki şəxslərin uçota alınması vergi mədəniyyətini formalaşdıran amilə çevrilir.

beynəlxalq panoram

# Beynəlxalq seminarda ölkəmizin təcrübəsi bəyənilmişdir

Avstriya Respublikasının paytaxtı Vyana şəhərində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı tərəfindən «Transfert qiymətlər (orta səviyyə)» mövzusunda seminar keçirilmişdir. 18 ölkənin nümayəndəsinin iştirak etdiyi seminar zamanı transfert qiymətqoyma sahəsində qaydalar, transfert qiymətqoyma metodları, qarşılıqlı asılı şəxslər və digər mövzularda təqdimatlar dinlənilmiş, qiymətqoyma barədə anlayışlar və mexanizmlər, bu sahədə mövcud vəziyyət, qarşıda duran çətinliklər və digər məsələlər barədə ətraflı izahlar verilmişdir. Seminarda Azərbaycan Respublikasının Vergilər Nazirliyini Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin əməkdaşı Vüsal Şıxəliyev təmsil etmiş və təqdimatla çıxış etmişdir. Təqdimat böyük maraqla qarşılanmış, bazar qiymətləri üzrə məlumat bazasının yaradılması təcrübəsinin digər ölkələrdə də tətbiqinin məqsədəuyğun olduğu bildirilmişdir.

# Ukrayna valyuta mübadiləsinə yeni vergi tətbiq edəcək

Ölkədə 2011-ci ilədək qüvvədə olan nağdsız valyuta alqı-satqısı əməliyyatlarından pensiya yığımını bərpa etmək planlaşdırılır. Gəlirlər və Yığımlar, Maliyyə və Sosial Siyasət nazirliklərinə nağdsız valyuta alqı-satqısı əməliyyatlarından icbari dövlət sığorta öhdəliyi üzrə yığımların tətbiq edilməsi barədə qanun işləyib hazırlamaq və Ali Radanın müzakirəsinə təqdim etmək tapşırılmışdır. Qanun layihəsi 2010-2014-cü illər üzrə iqtisadi islahatlar proqramının 2013-cü ilə aid milli planı barədə prezident fərmanına uyğun şəkildə hazırlanılır. Xatırladaq ki, valyuta mübadiləsi əməliyyatlarından pensiya fonduna yığımlar barədə qanun 1998-ci ildə qəbul edilmiş və 2011-ci ilədək qüvvədə olmuşdur. 1998-ci ildən 2003-cü ilədək yığım dərəcəsi 1%, 2004-2005-ci illərdə 1,5%, 2006-cı ildə 1,3%, 2007-ci ildə 1%, 2008 və 2010-cu illərdə 0,5%, 2009-cu ildə isə 0,2% təşkil edirdi.



# ABŞ-da vergi güzəştlərinin məbləği vergi yığımını üstələyir

Müxtəlif vergi güzəştləri sistemi ABŞ-da dövlət büdcəsinə daxilolmaları əsaslı şəkildə azaldır və ona görə də səmərəsi az olan addım kimi qiymətləndirilir. ABŞ hökumətinin audit idarəsinin keçən həftə nəşr etdirdiyi hesabatda qeyd edilmişdir ki, 2013-cü ilin ilk rübü ərzində ölkənin korporativ vergi ödəyiciləri üçün müəyyən edilmiş vergi güzəştlərinin ümumi həcmi həmin kateqoriya üzrə yığılmış vəsaitdən çox olmuşdur.

Təhlillər göstərir ki, 2011-ci ildə ABŞ-ın korporativ vergi ödəyicilərinə müəyyənləşdirilən 80 növ vergi güzəştinin, imtiyazların, subsidiyaların və s. ümumi məbləği 181,3 milyard dollar olduğu halda, eyni dövr ərzində həmin ödəyicilərdən yığılmaş vergilərin məbləği 181,1 milyard dollara çatmamışdır. Audit idarəsi, həmçinin, bu qənaətə gəlmişdir ki, güzəştlərin 56 növü əvvəlcə təkcə şirkətlər üçün nəzərdə tutulsa da, hazırda onlardan fərdi vergi ödəyiciləri istifadə edirlər və bunun nəticəsində büdcə 125 milyard dollar itirmişdir. Audit idarəsinin daha bir qənaətinə görə, korporativ vergi güzəştlərinin ümumi sayının üçdəbiri düzgün istiqamətləndirilməmişdir və ya ABŞ hökumətinin digər subsidiya proqramları ilə ziddiyyət təşkil edir.

# Qazaxıstanda vergi islahatları davam etdirilir



2013-cü ilin yanvarından Qazaxıstanın «Vergilər və büdcəyə digər məcburi ödəmələr haqqında» Məcəlləsində (Vergi Məcəlləsinə) dəyişikliklər qüvvəyə minib. Dəyişikliklərə əsasən, yanvar ayından alqı-satqı prosesində hesab-fakturada göstərilmiş malların, işin və xidmətlərin ödənişi ƏDV nəzərə alınmaqla nağd şəkildə aparılarsa, ƏDV əvəzləşməyə qəbul edilməyəcək. 2012-ci ilin iyununda qəbul edilmiş «Qanunsuz yolla alınmış gəlirlərin leqallaşdırılması (yuyulması), vəsaitlərin nağdlaşdırılması və terrorizmin maliyyələşdirilməsi ilə mübarizə sahəsində Qazaxıstan Respublikasının bir sıra qanunvericilik aktlarına dəyişikliklər və əlavələrin edilməsi haqqında» Qanunla «Vergilər və büdcəyə digər məcburi ödəmələr haqqında» Məcəlləyə əlavə dəyər vergisinin əvəzləşdirilməsi ilə bağlı məsələlərə dair dəyişikliklər edilib. Bundan əlavə, ölkədə yeni torpaq vergisi ilə bağlı təkliflər də hazırlanır. 2013-cü ilin ortalarına qədər bu barədə təkliflər hazır olacaq. Qazaxıstan Maliyyə Nazirliyi Vergi Komitəsinin sədri Anuar Djumadildayevin sözlərinə görə: «Torpaq vergisi ilə bağlı müxtəlif variantlar var. Hazırda müzakirələr işçi qrup çərçivəsində aparılır və düşünürəm ki, yay aylarına qədər müəyyən nəticəyə gələ biləcəyik». O, müvafiq qanun layihəsinin artıq payızda parlamentə təqdim ediləcəyini demişdir.

Xatırladaq ki, Qazaxıstanın Baş naziri Serik Axmetov bir müddət öncə müvafiq nazirliklərə kənd təsərrüfatı təyinatlı torpaqlara vergi dərəcələrinin artımı ilə bağlı təkliflər hazırlayaraq hökumətə təqdim etməyi tapşırmışdı. Qazaxıstanda torpaq vergisinin artımı məsələsi ölkə Prezidenti Nursultan Nazarbayev tərəfindən qaldırılıb. Prezident fermerlər tərəfindən torpaqlardan istifadənin səmərəliliyini artırmaq üçün torpaq vergisinin dərəcələrinə yenidən baxılmasına zərurət olduğunu bildirib.

# Moldovada bahalı əşya alanlar vergi xidmətinin diqqət mərkəzindədir



Baş Dövlət Vergi Müfəttişliyi bahalı əşyalar alan, lakin vergi ödəməyənlər barədə məlumatlar toplamağa başlayıb. Bu məqsədlə «Dolayı mənbələrdən məlumatların yığılması» adlı avtomatlaşdırılmış informasiya sistemi yaradılaraq işə salınıb. Məlumatlar, əsasən, maliyyə təşkilatlarından, sığorta və turizm şirkətlərindən daxil olacaq. Vergitutma məqsədləri üçün xərclərin və gəlirlərin qiymətləndirilməsinin vasitəli metodu 2013-cü il martın 1-dən, 2012-ci il üçün gəlir bəyannamələrinin təqdim edilməsindən sonra tətbiq edilib. Qanun rezident fiziki şəxsləri, sahibkarlıq fəaliyyəti həyata keçirməyən, lakin bahalı əşyalar alan Moldova Respublikasının vətəndaşlarını əhatə edəcək. Yeni sistem vergi orqanlarına bu şəxslərlə bağlı informasiyaları operativ şəkildə almağa icazə verəcək. Dövlət vergi xidmətinin məlumatlarına görə, 1.400-dən çox fiziki şəxs bir milyon leydən (10 ley = 0,8 ABŞ dolları) yuxarı, 20000-dən çox vətəndaş - 1 milyona leyə qədər məbləğdə gəlirlərini bəyan edib.

krossvord



**Yuxarıdan aşağı:** 1.Müvafiq maddi-texniki bazaya və infrastruktura malik təhsil kompleksi və ya şəhərciyi; 2.Buryat simli musiqi aləti; 3.Məişət texnikasında və avtomobillərdə geniş yayılan elektriklə işləyən birləşdirmə (kommutasiya) cihazı. Onun əsas vəzifəsi elektrik dövrəsini yandırıb-söndürməkdir; 5.Avropada çox populyar, mənşəyi klassik macar mətbəxinə aid, qışda istifadə etmək məqsədilə yay fəslində tərəvəzlərdən hazırlanan salat; 6.Gürcüstanda şəhər; 7.Respublikamızda rayon; 8.Şəxsin yaşadığı yerin və ya müəssisənin, idarənin yerləşdiyi yer; 14.Yunan mifologiyasında meşə tanrısı, Hermesin oğlu; 15.Azərbaycan mətbəxində sulu yeməklərdən biri; 17.Dahi alman bəstəkarı L.Bethovenin operası (1814); 19.Azərbaycanda yarımköçərilərin, elat əhlinin istifadə etdiyi olacaq; 20.Xızı rayonunda kənd; 21.Keçən əsrin 90-cı illərində əhaliyə müəssisələrin özəlləşdirilməsi məqsədilə paylanan çek; 25.Böyük Britaniyada çay; 26.Hökumət tərəfindən qəbul edilən və özündə birlik əks etdirən təntənəli musiqi; 27.Kiçik və ya orta həcmdə olan, elmin bir çox sahəsində müraciət olunan, tənqid və ədəbiyyatşünaslığın müəyyən bir problemini sərbəst surətdə izah etməsi ilə fərqlənən janr.

**Soldan sağa:** 1.Əsasən, Naxçıvanda geniş yayılmış milli rəqslərimizdən biri; 4.Yer kürəsinin maketi; 9.Avropa dağ massivində yüksək zirvə; 10.Şimali Afrika, Ərəbistan yarımadası, Hindistan və Asiyanın bəzi bölgələrində geniş yayılmış kişi baş örtüyü; 11.Qədim türk mifologiyasında ev, heyvandarlıq tanrısı; 12.Yaxın və Orta Şərqin bəzi ölkələrində monarx titulu; 13.Müntəzəm qaydada təkrarlanan dövr; 16.Puça çıxmaq, əsassızlıq. İqtisadiyyatda «bankrot» sözünün qarşılığı kimi işlədilir; 18.Bakıda Füzuli küçəsinin əvvəlki adı; 22.«AvtoVAZ» tərəfindən istehsal edilən avtomobil markası; 23.Azərbaycanda siyasi partiya; 24.Yunan əlifbasında 2-ci hərf; 28.Londonun futbol klubu; 29.SSRİ-də movcud olan maşınqayırma zavodu; 30.Belarusda şəhər; 31.Asiyada çay. Həmçinin, Qədim Misirdə daha geniş istifadə olunmuş ornament.

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:**
1.Məşhəd; 2.«Sevil»; 3.Amon; 5.Vudu; 6.Laqqutu; 7.Darvin *(Çarlz)*; 8.Tetri; 14.Uça; 15.May; 17.Ağstafa; 19.Dakota; 20.Kombi; 21.Apatit; 25.İsaak *(Nyuton)*; 26.Bayt; 27.Ələt.

**Soldan sağa:**
1.Mostar; 4.Evklid; 9.Şevrole; 10.Diqor; 11.Əsli; 12.Era; 13.Rupi; 16.Manço *(Barış)*; 18.Samur; 22.Ağsu; 23.Don; 24.Lisp; 28.Osaka; 29.Belfast; 30.Aratta; 31.Etiket.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu

Qeydiyyat şəhadətnaməsi №R148.
VÖEN: 1300327481.
H/h AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581.
VÖEN: 9900006651.

M/h: 0137010032944
SWIFT BIK ATAZAZ-22.
Ünvan: AZ 1141, Bakı ş., Hüseyn Cavid pr., 81

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.
Tiraj: 15000

idman

# Azərbaycan Güləş Federasiyasının Kuboku uğrunda ənənəvi beynəlxalq turnir başa çatdı

*Aprelin 21-də «Sərhədçi» İdman Olimpiya Mərkəzində sərbəst və yunan-Roma güləşi üzrə yeniyetmə və gənclər arasında Azərbaycan Güləş Federasiyasının Kuboku uğrunda ənənəvi beynəlxalq turnirə yekun vurulmuşdur.*

Turnirin sonuncu günündə sərbəst güləş üzrə gənc pəhləvanlar mübarizə aparmışlar. Yarışda Elnur Kabatayev (50 kq, Qazaxıstan), Ruslan Surxayev (55 kq, Azərbaycan), Şota Partenidze (60 kq, Gürcüstan), Hacımurad Ömərov (66 kq, Azərbaycan), Saken Aytjanov (74 kq, Qazaxıstan), Həmzət Osmanov (84 kq, Azərbaycan), Yusuf Can Zeybek (96 kq, Türkiyə) və Geno Petriaşvili (120 kq, Gürcüstan) fəxri kürsünün ən yüksək pilləsinə qalxmışlar.

Milli komandamızın digər üzvləri Nurlan Hacıyev (60 kq), Ənvərbəy Dalqatov (66 kq), Kamran Yunusov (74 kq), Məhəmməd Abdulxalıqov (84 kq), Ali Maqomedabirov (120 kq) gümüş, Ağabəy Ramazanzadə (60 kq), Bəxtiyar İsrafilli (74 kq), Orxan Şərifov və Mircəfər Murtuzlu (hər ikisi 84 kq) bürünc medallara sahib olmuşlar.

Xatırladaq ki, turnirdə Azərbaycan pəhləvanları ilə yanaşı, Rusiya, Türkiyə, Qazaxıstan, Özbəkistan, Gürcüstan, Tacikistan, Almaniya, Ukrayna və Qırğızıstan güləşçiləri də iştirak etmişlər.

## Teplitsedən «medal yağışı»

Çexiyanın Teplitse şəhərində gənc oğlanlar və qızlar arasında cüdo üzrə Avropa Kuboku yarışlarında Azərbaycan komandası dörd qızıl və bir gümüş medal qazanmışdır. Azərbaycan Cüdo Federasiyasından verilən məlumata görə, 55 kq çəki dərəcəsində final görüşündə qarşılaşan idmançıların hər ikisi Azərbaycan nümayəndələri olmuşdur. İlkin Babazadə Fərid Qardaşxanova qalib gəlmişdir. 50 kq çəki dərəcəsində həlledici döyüşdə Xəzər Həsənov Belçika nümayəndəsi Vladislav Limi məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxmışdır. 60 kq çəki dərəcəsində çıxış edən Rauf Xəlilov da qızıl medal qazanmışdır. O, final görüşündə İtaliya nümayəndəsi Elios Manzidən üstün olduğunu sübut etmişdir. Qızlar arasında 40 kq çəki dərəcəsində çıxış edən Leyla Əliyeva da əla çıxış etmişdir. O, qızıl medal uğrunda döyüşdə hollandiyalı Anek Norderdən daha güclü olduğunu göstərmişdir.

## Avropa çempionatında uğurlu çıxış

***Moldovanın paytaxtı Kişinyovda 16-21 yaşlılar arasında taekvondo üzrə Avropa çempionatı başa çatmışdır.***

Qitə çempionatında ölkəmizi baş məşqçi Gündüz Abdullayev, məşqçilər Məmməd Abdullayev, Elnur Amanov və Təvəkkül Bayramovun başçılığı altında 14 taekvondoçu təmsil etmişdir.

Yarışda 68 kiloqram çəki dərəcəsində gənc idmançımız Hüseyn Mehralıyev bütün rəqiblərini məğlub edərək Avropa çempionatının qızıl mükafatçısı olmuşdur. Qeyd edək ki, yarışda 67 kiloqram çəki dərəcəsində Fəridə Əzizova da fəxri kürsünün ən yüksək pilləsinə qalxmışdır.


2013-cü il aprel ayının 30-da
Dənizkənarı Milli Parkda
velosiped bayramı və
"TOUR d`AZERBAİDJAN"
beynəlxalq velosiped turunun
təqdimat mərasimi!



Populyar türk müğənnisi
MUSTAFA CECELİ'nin
CANLI KONSERTİ

Tədbir ümummilli lider Heydər Əliyevin
90 illik yubileyinə həsr olunmuş
möhtəşəm konsert və
3D Şou ilə başa çatacaq.

Unutmayın, Dənizkənarı Milli Park,
30 aprel saat 18.00-da.


mozaika

## Tıxacların ən çox qeydə alındığı şəhərlər

araşdırma

Aparıcı naviqasiya şirkəti «TomTom» ötən ilin yekunları üzrə nəqliyyatın hərəkətinin ən sıx olduğu dünya şəhərlərinin siyahısını açıqlamışdır. Şirkətin hazırladığı nəqliyyatın hərəkətinin sıxlığı indeksində Moskva 66%-lə siyahıda birincidir. Rusiya paytaxtını 55%-lə Türkiyənin İstanbul şəhəri izləyir. Siyahıda sonrakı yerləri Varşava, Marsel, Palermo, Los-Anceles, Sidney, Ştutqart, Paris və Roma şəhərləri tutur. Şirkətin məlumatına görə, ötən il Avropada nəqliyyatın hərəkətində ən acınacaqlı vəziyyətin yarandığı şəhərlər Lids, İstanbul və Moskva olmuşdur.

## Dəniz səviyyəsi aşağı düşəcək?

elm

*Milli.Az «Amerikanın səsi»nə istinadən bildirir ki, iqlim alimlərinin son hesabatına görə, indi diqqətlər karbon dioksidə deyil, başqa istiqamətə yönəlib.*

Axırıncı yüzillikdə karbon dioksid qazının atmosferdə toplaşmaqla günəş hərarətinin qarşısını alması ilə buzlaqların əridiyi, buz qatlarının kiçildiyi və okean sularının artdığı deyilirdi.

Lakin alimlər istiliyin qarşısını digər bir faktorun da aldığını bildirir. Onların qənaətinə görə, qaz tullantılarını azaltmaqla iqlim dəyişikliyinə mane olmaq mümkündür.

Tədqiqatçılar metan, troposfer ozonu, hidroftor karbon və qara karbon qazlarının hədəf alınmasını irəli sürür və hazırkı texnologiyanın buna qadir olduğunu deyirlər. Bu strategiya 2050-ci ilədək havanı 50 faiz sərinləşdirə bilər. Bu isə əsrin sonunadək su səviyyəsinin 22%-dən 44%-ə qədər azalması deməkdir.

## Yuxu zamanı musiqi dinləmək yaddaşı gücləndirir

sağlam hayat tarzi

*Almaniyanın Tyubinhen universitetinin əməkdaşları sübut etmişlər ki, səs stimuliyasiyası əvvəllər əldə edilmiş biliyi möhkəmləndirir və yaddaşı gücləndirir.*

Tədqiqatçılar səs stimuliyasiyasının 11 insanın beyninin fəaliyyətinə təsirini araşdırmışlar. Təcrübə göstərmişdir ki, yuxu zamanı musiqinin səsi beyin ritmləri ilə üst-üstə düşdüyü halda, iştirakçılar əvvəllər öyrəndikləri bilikləri yaxşı yada salmışlar.

Tədqiqatın müəllifi Yan Born hesab etmişdir ki, yeni üsul yuxu ritminin yaxşılaşdırılması üçün bir vasitədir. Alimlər ümid edirlər ki, onların kəşfi yuxusuzluq və yaddaş zəifliyi kimi problemlərin həllinə kömək edəcəkdir.



## Şirvanşahlar Dövləti

özümüzü tanıyaq



Şirvanşahlar dövləti Azərbaycanın dövlətçilik tarixində mühüm yerlərdən birini tutur. Cənub-şərqi Qafqazda - əsasən indiki Azərbaycan Respublikası və qismən də indiki Dağıstan ərazisində mövcud olmuş bu dövlət Azərbaycan xalqının formalaşmasında böyük tarixi rol oynamışdır. Ərazisi şərqdə Dərbənddən Kür çayı mənsəbinə qədər Xəzər dənizi sahillərindən başlayaraq, Şirvan tarixi vilayəti ilə yanaşı, qərbdə bəzən Gəncə şəhərinə qədər uzanmış, ayrı-ayrı vaxtlarda Şəki və Qarabağı, o cümlədən Beyləqanı da əhatə etmişdir. Paytaxtı Şamaxı, bəzən isə Bakı şəhəri olmuşdur.

Hələ VI əsrin birinci yarısında Şabran və Gilgil çayları arasında yaranmış Şirvanşahlar dövləti təxminən 1000 ilədək mövcud olub. Əvvəllər Şirvanşahlar dövləti Ərəb Xilafətindən asılı olduğundan, bu dövr haqqında məlumat çox azdır. 861-ci ildə ərəb mənşəli Məzyədilər Şirvanşahlar dövlətinin müstəqilliyini əldə etmişdi. Uzun illər tarix səhnəsində mövcud olan Şirvanşahlar dövləti müəyyən vaxtlarda ayrı-ayrı sülalələr tərəfindən idarə olunub: Məzyədilər (861-1027), Kəsranilər (1027-1382) və Dərbəndilər (1382-1538). Səfəvi hökmdarı I Təhmasibin hakimiyyəti illərində - 1538-ci ildə Şirvanşahlar dövlətinin müstəqilliyi ləğv edilir və Şirvan vahid Azərbaycan dövlətinin tərkibinə daxil edilir.

Beləliklə, 799-cu ildən 1538-ci ilədək Şirvanşahlar paytaxtı Şamaxıda yerləşən müstəqil dövlət kimi mövcud olmuşdur. XVI əsrdə Şirvan Səfəvilər dövlətinin tərkibinə daxil edilmiş və XVIII əsrdə bir xanlıq kimi fəaliyyət göstərmişdir. Nəhayət, 1813-cü ildə Şirvan ərazisi Gülüstan müqaviləsinin nəticəsində Rusiya imperiyasının tərkibinə daxil edilmişdir.

Şirvanşahlar dövləti təxminən yeddi əsr mövcud olmuş və həmin müddət ərzində dövlətin banisi hesab edilən Heysəm ibn Xalidin nəslindən olan şahlar - Şirvanşahlar sülaləsi tərəfindən idarə edilmişdir. Bəzi tarixçilər Şirvanşahlar sülaləsinin hakimiyyət dövrünü 3 mərhələyə - Məzyədilər, Kəsranilər və Dərbəndilər dövrünə bölürlər və hesab edirlər ki, əgər Məzyədilər özlərinin ərəb mənşələrini qoruyub saxlaya bilmişdilərsə, Kəsranilər özlərini daha çox Sasani şahlarının nəslindən hesab etmiş və İran mədəniyyətinə meyil göstərmişlər. Dərbəndilər isə ənənəvi «Şirvanşah» titulu ilə yanaşı, həm də «Xan» və «Xaqan» titulları da daşımış və türk mədəniyyətini təmsil etmişlər.

Orta əsr müəllifləri eramızın başlanğıcından Şirvana türkdilli hunlar, sabirlər və xəzərlərin yürüşləri barədə məlumat verirlər. Şirvanda türk mənşəli tayfaların mövqeyinin möhkəmləndirini görən Sasani hökmdarları I Qubad və I Xosrov Ənuşirəvan Şirvana Lahican, Təbəristan, Gilan və sair əyalətlərindən irandilli tayfa köçürmüşdü. Türkdilli tayfaların Şirvana axını VI əsrdə xüsusilə güclənmişdi. Həmin dövrdə Qafqazda ən qüdrətli tayfa birliyi Dağıstan ərazisində yaşayan sabirlərə məxsus idi. Onlar Şirvanı və Arranı tutub keçmiş məkanları olan Dərbənd-Qəbələ zonasına yayılmışdılar. Təqribən I əsrdə orada yaşayan sabirlərin bir qismi yerli əhali ilə qaynayıb qarışaraq oturaq həyata keçirmişdi. Türkdilli tayfaların Şirvanda məskunlaşması prosesi intensiv olaraq davam etmişdir.

Şirvanşahların himayəsi altında Azərbaycan mədəniyyəti zənginləşdirilmiş, inkişaf etdirilmiş, Azərbaycan ədəbiyyatının Əbülüla Gəncəvi, Nizami Gəncəvi, Xaqani Şirvani, Nəimi, Nəsimi, Seyid Yəhya Bakuvi kimi klassikləri yaşayıb yaratmış, bu mədəniyyətin yetirməsi kimi araya-ərsəyə gəlmişlər. Şirvanşahlardan dövrümüzə Şirvanşahlar sarayı, Bibiheybət məscidi, Bakı qalası, Pirsaatçay xanəgahı kimi onlarca dəyərli tarixi-memarlıq abidəsi qalmışdır.

**Müdriklər deyib ki...**



***«Həddən artıq tələskənlik də lənglik kimi kədərli sonluqla nəticələnir».***

*Vilyam Şekspir (1564-1616)*